Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin
P R E Z İ D E N T  K İ T A B X A N A S I

# Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə nəşr olunmuş kitablar
# Annotasiyalı biblioqrafik göstərici

**№ 2**

**BAKI • 2010**

**Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə nəşr olunmuş kitablar:** annotasiyalı biblioqrafik göstərici, № 2.- Bakı, 2010.- 54 s.

Göstəricidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli 56 nömrəli və "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" 2007-ci il 24 avqust tarixli 2354 nömrəli sərəncamları ilə nəşr olunmuş kitabların biblioqrafik təsviri verilmişdir.

# M Ü N D Ə R İ C A T

**6/8 İCTİMAİ VƏ HUMANİTAR ELMLƏR**

**63 Tarix. Tarix elmləri**

**70/79 MƏDƏNİYYƏT. ELM. MAARİF**

**76 Kütləvi İnformasiya vasitələri. Kitab işi**

**80/84 FİLOLOGİYA ELMLƏRİ. BƏDİİ ƏDƏBİYYAT**

**81 Dilçilik**
81.2 Xüsusi dilçilik. Dünya dilləri
**82 Folklor. Folklorşünaslıq**
**83 Ədəbiyyatşünaslıq**
83.3 Dünya ədəbiyyatı və ayrı-ayrı ölkələrin ədəbiyyatının tarixi və tənqidi
**84 Bədii ədəbiyyat (ədəbi əsərlər)**
**85 İncəsənət. Sənətşünaslıq**
85.9 Müsiqi əsərləri (not)
**87 Fəlsəfə**
87.3 Fəlsəfə tarixi

## 6/8 İCTİMAİ VƏ HUMANİTAR ELMLƏR

### 63 Tarix. Tarix elmləri

| | | |
|---|---|---|
| **1.** | **63.3(0)**<br>**N 35** | **Nehru, Cəvahirləl.** Ümumdünya tarixinə nəzər / C. Nehru; tərc. T. Paşazadə; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 344 s.- (Dünya ədəbiyyatı)<br><br>Bu kitaba Hindistanın görkəmli siyasi və dövlət xadimi, ölkəsinin istiqlaliyyəti uğrunda mübarizənin rəhbərlərindən biri və onun ilk baş naziri Cəvahirləl Nehrunun məhbəsdə olarkən qızı İndira Qandiyə yazdığı məktublar daxil edilmişdir. Müəllif əsərdə bəşər sivilizasiyasının ikinci dünya müharibəsinə qədər olan tarixinin əsas hadisələrini qısaca şərh edir. |

## 70/79 MƏDƏNİYYƏT. ELM. MAARİF

### 76 Kütləvi İnformasiya vasitələri. Kitab işi

| | | |
|---|---|---|
| **1.** | **76.02(5Aze)**<br>**A 35** | **Ağaoğlu, Əhməd bəy.** Seçilmiş əsərləri / Ə. Ağaoğlu; tərt.: Ə. M. Mirəhmədov, V. M. Quliyev; red. A. H. Rüstəmli.- Bakı: Şərq-Qərb, 2007.- 392 s.- (Müasir Azərbaycan ədəbiyyatı).<br><br>Əhməd bəy Ağaoğlu Azərbaycanın və Türkiyənin, bütünlükdə isə çağdaş türk-islam dünyasının mədəniyyət və ictimai fikir tarixinə çoxcəhətli və ensiklopedik şəxsiyyət kimi daxil olmuşdur. Kitaba onun zəngin yaradıcılığından bir sıra bədii-fəlsəfi əsərləri və məqalələri daxil edilmişdir. |

# 80/84 FİLOLOGİYA ELMLƏRİ. BƏDİİ ƏDƏBİYYAT
## 81 Dilçilik

### 81.2 Xüsusi dilçilik. Dünya dilləri

| | | |
|---|---|---|
| 2. | 81.2Az-4<br>A 99 | **Azərbaycan dilinin orfoqrafiya lüğəti** / Azərbaycan Respublikasının Dövlət Dil Komitəsi, AMEA Nəsimi adına Dilçilik İnstitutu; red. A. A. Axundov.- Bakı: Lider nəşriyyat, 2004.- 728 s.- (Lüğət və ensiklopediyalar).<br><br>Bu kitab Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 avqust 2004-cü il tarixli qərarı ilə təsdiqlənmiş "Azərbaycan dilinin orfoqrafiya qaydaları" əsasında latın qrafikalı əlifba ilə hazırlanmış ilk nəşrdir. Lüğətə əvvəlki nəşrdə olmayan 18 minə yaxın söz də daxil edilmişdir. |
| 3. | 81.2<br>Ç 67 | **Çobanzadə, Bəkir Vahab oğlu.** Seçilmiş əsərləri: 5 cilddə / B. V. Çobanzadə; bur. məsul Ə. Güləliyev<br>**I cild** / tərt., ön sözün müəl. M. Adilov, red. A. Babayev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 336 s.- (Müasir Azərbaycan ədəbiyyatı)<br><br>Müasir türk dünyasının ən böyük türkoloq-alimi adını daşımağa layiq olan professor Bəkir Çobanzadənin "Seçilmiş əsərləri"nin I cildinə 1920-ci illərdə Bakıda ərəb qrafikası ilə nəşr edilmiş "Türk-tatar lisaniyyatına mədxəl" və "Türk-tatar dialektolojisi", eləcə də arxivdə makina latın çapı və əski əlyazması halında qalmaqda olan "Xətainin dili və bədii yaradıcılığı haqqında" əsərləri daxil edilmişdir. |
| 4. | 81.2<br>Ç 67 | **Çobanzadə, Bəkir Vahab oğlu.** Seçilmiş əsərləri: 5 cilddə / B. V. Çobanzadə; bur. məsul Ə. Güləliyev<br>**II cild** / tərt., ön sözün müəl. M. Adilov, red. A. Babayev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 368 s.- (Müasir Azərbaycan ədəbiyyatı)<br><br>Şərq dünyasının XX əsrin 20-30-cu illərində yazıb-yaratmış ən böyük alimlərdən Bəkir Çobanzadənin "Seçilmiş əsərləri"nin II cildinə onun 1928-ci ildə Ağməsciddə əski əlifbada nəşr etdirdiyi "Son dövr Krım-tatar ədəbiyyatı tənqid təcrübələri", arxivdə makina latın çapı və əski əlyazması halında qalmış "İbn Mühənna və onun lüğəti" kitabları, eləcə də elmi dövri mətbuatda Azərbaycan və rus dillərində nəşr edilmiş 27 məqalə və cıxışı daxil edilmişdir. |
| 5. | 81.2<br>Ç 67 | **Çobanzadə, Bəkir Vahab oğlu.** Seçilmiş əsərləri: 5 cilddə / B. V. Çobanzadə; bur. məsul Ə. Güləliyev<br>**III cild** / tərt.: A. Ramazanov, T. Quliyev, ön sözün müəl., red. M. Adilov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 344 s.- (Müasir Azərbaycan ədəbiyyatı)<br><br>Görkəmli türkoloq Bəkir Çobanzadənin "Seçilmiş əsərləri"nin üçüncü cildinə daxil edilmiş "Türk dili və ədəbiyyatının tədris üsulu" adlı ikicildliyi türk dillərinin və ədəbiyyatlarının tədrisi və tədqiqi metodlarının öyrənilməsinə həsr olunmuşdur. Kitab Azərbaycanda ali təhsil tarixinin öyrənilməsinə zəngin material verir və müasir tədris və elmi araşdırmalar üçün aktuallığını hələ də saxlamaqdadır. |
| 6. | 81.2<br>Ç 67 | **Çobanzadə, Bəkir Vahab oğlu.** Seçilmiş əsərləri: 5 cilddə / B. V. Çobanzadə; bur. məsul Ə. Güləliyev<br>**IV cild** / tərt., ön sözün müəl. M. Adilov, red. V. Adilov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 200 s.- (Müasir Azərbaycan ədəbiyyatı) |

Oxucuların diqqətinə təqdim olunan bu kitab 1928-ci ildə "Evdə pedaqoji texnikumu" seriyasından türk dilini müstəqil öyrənənlərə kömək üçün nəzərdə tutulsa da, əslində türk dilinin tədrisində müəllimlərə metodiki kömək vəsaiti sayıla bilər.

7. **81.2**
**Ç 67**

**Çobanzadə, Bəkir Vahab oğlu.** Seçilmiş əsərləri: 5 cilddə / B. V. Çobanzadə; bur. məsul Ə. Güləliyev
**V cild** / tərt.: M. Adilov, S. Hadıyeva; red.: V. Adilov, T. Axundova.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 264 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Görkəmli türkoloq-alim Bəkir Çobanzadənin (1893-1938) zəngin irsinin bir parçasını əhatə edən beşcildlik "Seçilmiş əsərləri" onun ""Kumuk dili və ədəbiyyatı tədqiqləri" və F. Ağazadə ilə birlikdə Azərbaycan yazılı dilinin tədqiqinə həsr etdiyi "Türk qrameri" kitabları ilə tamamlanır. Hər iki əsər bu gün də türkologiya elmi, o cümlədən müasir Azərbaycan dilinin inkişaf yollarını öyrənmək üçün öz aktuallığını saxlamaqdadır.

8. **81.2Az-4**
**K 80**

**Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti**: 2 cilddə / tərt.: B. T. Abdullayev, M. Əsgərli, H. Zərinəzadə; elmi red. M. Adilov
**I cild**: A - L.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- 416 c.- (Lüğət və ensiklopediyalar)

Lüğət klassik Azərbaycan ədəbiyyatı nümunələrinin orijinal yazıda oxunuşunu, nəşr edilmiş klassik mətnlərdə tez-tez rast gəlinən ərəb və fars mənşəli alınma söz və ifadələrin başa düşülməsini asanlaşdırmaq və ümumiyyətlə, Azərbaycan dilində işlənən ərəb və fars alınmalarının ümumi mənzərəsini sistemli şəkildə əks etdirmək məqsədi daşıyır.

9. **81.2Az-4**
**K 80**

**Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti**: 2 cilddə / tərt.: B. T. Abdullayev, M. Əsgərli, H. Zərinəzadə; elmi red. M. Adilov
**II cild**: M - Z.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- 472 c.- (Lüğət və ensiklopediyalar)

Lüğətin əsas məqsədi Azərbaycan ədəbiyyatı klassiklərinin əsərləri ilə yaxından tanış olmaq, onu daha dərindən öyrənmək istəyən oxuculara, xüsusən yeni nəslə kömək etməkdən ibarətdir. Buna uyğun olaraq, lüğətə yalnız anlaşılması çətin olan, bu gün ədəbi dilimizdə işlədilməyən və ancaq klassiklərin əsərlərində təsadüf olunan ərəb və fars sözləri daxil edilmişdir.

## 82 Folklor. Folklorşünaslıq

10. 82(5Aze) A 95 **Atalar sözü** / tərt., ön sözün müəl. C. Bəydili, elmi red. İ. İ. Abbaslı.- Bakı: Öndər nəşriyyat, 2004.- 264 s.- (Azərbaycan xalq ədəbiyyatı)

Bu nəşrdə elin düşüncə dünyasından qopan hikmətamiz qəlpələrin- Azərbaycan atalar sözlərinin toplanması və nəşri sahəsində yüz ildən artıq bir dövr ərzində göstərilən zəngin fəaliyyətin başlıca nəticələri əhatə olunur. Kitabın sonuna yazılı qaynaqlardan seçmə atalar sözləri əlavə edilmişdir.

11. 82(5Aze) A 99 **Azərbaycan xalq ədəbiyyatından** seçmələr: qaravəllilər, oyunlar və xalq tamaşaları / tərt.: H. Ə. İsmayılov, T. Orucov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- 312 c.- (Ədəbiyyat antologiyaları)

Kitabda mərasimlər və ayinlər içərisində yaranıb yayılan, öz məzmun, şəkil və hətta mənalarını dəyişərək zəmanəmizə qədər gəlib çıxan qədim və son dərəcə zəngin xalq sənəti nümunələrindən qaravəllilər, oyunlar və xalq tamaşaları toplanmışdır.

12. 82.3(5Aze) D 42 **Dədə Qorqud dünyası**: məqalələr / tərt.-red. T. İ. Hacıyev, bur. məsul Ə. Güləliyev.- Bakı: Öndər nəşriyyat, 2004.- 240 s.- (Azərbaycan xalq ədəbiyyatı)

Kitabda Azərbaycan qorqudşünaslığının son dövrlərdəki yeni elmi nailiyyətlərini özündə əks etdirən məqalələr toplanmışdır. Məqalələrdə "Kitabi-Dədə Qorqud" yalnız filoloji deyil, həm də tarix, hüquq, psixologiya, etnoqrafiya və başqa elm sahələrinin tədqiqat predmeti kimi araşdırılır.

13. 82(5Aze)я2 D 42 **Dədə Qorqud kitabı**: ensiklopedik lüğət / tərt. T. İ. Hacıyev; elmi red.: T. İ. Hacıyev, C. Bəydili; bur. məsul Ə. Güləliyev.- Bakı: Öndər nəşriyyat, 2004.- 368 s.- (Azərbaycan xalq ədəbiyyatı)

"Kitabi-Dədə Qorqud Ensiklopediyası"nın ikinci cildi əsasında hazırlanan bu nəşrdə "Dədə Qorqud kitabı" mətnində rast gəlinən ən müxtəlif anlayışların elmi izahı verilir. Filoloji və türkoloji fikrin bir çox mühüm nailiyyətlərini özündə əks etdirən həmin izahlar eyni zamanda qorqudşünaslıqla bağlı zəngin məlumat mənbəyidir.

14. 82.3(5Aze) K 76 **Kitabi-Dədə Qorqud**: əsil və sadələşdirilmiş mətnlər / tərt. S. Əlizadə; red. T. İ. Hacıyev; bur. məsul Ə. Güləliyev.- Bakı: Öndər nəşriyyat, 2004.- 376 s.- (Azərbaycan xalq ədəbiyyatı)

"Kitabi-dədə Qorqud" dilimizin, ədəbiyyatımızın, dastan yaradıcılığımızın, ümumiyyətlə mədəniyyətimizin tarixini öyrənməkdə böyük əhəmiyyətə malikdir. Bu nəşrdə Dədə Qorqud iki variantda- orijinala tam uyğun və müasirləşdirilmiş şəkildə verilir.

15. 82 Q 13 **Qabusnamə** / fars dilindən tərc. R. Sultanov; red. Ə. Cəfər; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 216 s.- (Dünya ədəbiyyatı)

Qədim Şərq ədəbiyyatının qiymətli nümunələrindən olan "Qabusnamə" özünün məzmun rəngarəngliyinə görə geniş şöhrət qazanmışdır. Dünyanın bir çox xalqlarının dillərinə tərcümə edilmiş bu hikmət kitabı dövranın acısını-şirinini dadmış qoca atanın öz oğluna nəsihəti və vəsiyyətindən bəhs edir.

16. 82(5Aze) Q 14

**Qaçaq Nəbi** / ön sözün müəl. İ. İ. Abbaslı; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2005.- 96 s.- (Azərbaycan xalq ədəbiyyatı)

Azərbaycanda milli-azadlıq hərəkatının özünəməxsus mərhələsi olan qaçaqçılıq hərəkatının tanınmış nümayəndələrindən biri də Qaçaq Nəbidir. Bu kitaba "Qaçaq Nəbi" dastanının Ə.H. Tahirov nəşri ilə yanaşı, Qaçaq Nəbi ilə bağlı hadisələri qələmə almış B.Ə. Behcətin "Qaçaq Nəbinin tarixi" əsərindən "Qaçaq Nəbi haqqında xalqın qoşduğu bədii dastan parçaları" daxil edilmişdir.

17. 82 O-26

**Oğuznamə** / tərt. S. Əlizadə; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 216 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

"Oğuznamə" XV-XVI əsrlərdə üzü köçürülən əlyazmasıdır. Xalq müdrikliyindən nur alan "Oğuznamə", təxminən iki min atalar sözü və məsəldən ibarətdir. Ulu babalarımızın dil və təfəkkür incilərini sistemli şəkildə bizə çatdıran bənzərsiz "Oğuznamə" toplusu Azərbaycan və türk dilləri tarixini müxtəlif cəhətdən öyrənmək işinə xidmət edəcək çox qiymətli yazılı ədəbi abidədir.

18. 82(4) S 62

**Skandinav dastanları**: toplu / rus dilindən tərc. Y. Əzimzadə; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 248 s.- (Dünya ədəbiyyatı)

Skandinav əsatiri, Skandinav allahları haqqında dastanlar təkcə Avropada deyil, eyni zamanda bütün dünyada tanınmış, daha diqqətəlayiq və qədim dövrün mənzərələrini özünəməxsus şəkildə əks etdirən xalq ədəbiyyatı nümunələridir. Bu topluya xeyirxah kral Qulli, müdrik Odin, Yer allahının oğlu Tor, dənizçi Völünd, qüvvətli və mərd Siqmund, ucaboylu, pəhləvan cüssəli Siqurd və digər əfsanəvi personajlar haqqında dastanlar daxil edilmişdir.

## 83 Ədəbiyyatşünaslıq

### 83.3 Dünya ədəbiyyatı və ayrı-ayrı ölkələrin ədəbiyyatının tarixi və tənqidi

**19.** **83.3(0)** **Q 43**

**Qədim Şərq ədəbiyyatı müntəxəbatı** / tərc.: İ. Ö. Vəliyev, E. Ağaoğlu, N. Səfərov; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 672 s.- (Dünya ədəbiyyatı)

Kitaba Qədim Misir, Şumer, Çin, Hind, Midiya, Yəhudi xalqlarının ən qədim söz yadigarları: Misirin nəşri və şeiri, Şumerin "Bilqamis" dastanı, əski Çin ədəbiyyatından, fəlsəfi poeziya və tarixi nəsrindən örnəklər, hind xalqının "Mahabharata" dastanı, yəhudilərin "Tövrat"a daxil olan "Varlıq kitabi"ndan seçmələr daxil edilmişdir.

## 84 Bədii ədəbiyyat (ədəbi əsərlər)

20. 84(5Aze) A 13

**Abbaszadə, Hüseyn Abbas oğlu.** Seçilmiş əsərləri: 2 cilddə / H. A. Abbaszadə
**I cild**.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 320 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Hüseyn Abbaszadənin "Seçilmiş əsərləri"nin bu cildinə müxtəlif illərdə yazılmış hekayələrinin bir qismi və üç povesti- "Şokoladpaylayan qız", "Uzaqdan gələn qonaq", "Xahiş" daxil edilmişdir. Müəllif istər povestlərində və istərsə də hekayələrində ali həqiqətlərdən realist bədii dildə və üslubda danışır.

21. 84(5Aze) A 13

**Abbaszadə, Hüseyn Abbas oğlu.** Seçilmiş əsərləri: 2 cilddə / H. A. Abbaszadə
**II cild**: Burulğanlar: roman.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 392 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Hüseyn Abbaszadənin "Seçilmiş əsərləri"nin bu cildinə onun "Burulğanlar" romanı daxil edilmişdir. Müxtəlif dillərə tərcümə olunmuş roman 1984-cü ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

22. 84(4Гем) A 58

**Alman ədəbiyyatı antologiyası** / alman dilindən tərc. H. Arzulu [et al.]; rus dilindən tərc. S. Rəhman [et al.]; red.: V. T. Hacıyev, F. Əliyev.- Bakı: Şərq-Qərb, 2009.- 688 s.- (Dünya ədəbiyyatı antologiyaları)

Bəşər mədəniyyəti tarixində öxünəməxsus yeri olan alman ədəbi irsi dünya ədəbiyyatında görkəmli yazıçı və şairlər bəxş etmişdir. Təqdim olunan antologiyaya alman ədəbiyyatının incilərindən- Y.V. Getenin şeirləri, H. Heynenin poeziyasından nümunələr və "Hars səfəri" povesti, Q.E. Lessinqin "Emiliya Qalotti" faciəsi, F. Şillerin "Şərəfini itirmiş cinayətkar" hekayəsi, T. Ştormun "Ögey ana" novellası, F. Volfun və V. Borhertin hekayələri və F. Nitsşenin "Zərdüşt belə dedi" əsərindən parçalar daxil edilmişdir. Dünya və Avropa nağılçıları arasında alman ədəbi nağılının nümayəndələri özünəməxsus yer tutmuşdur.

23. 84(4Гем) A 58

**Alman ədəbiyyatı antologiyası**: 2 cilddə / bur. məsul Ə. Güləliyev
**I cild** / Y. V. Gete [et al.]; tərc.: H. Arzulu [et al.].- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 440 s.- (Dünya ədəbiyyatı)

Bəşər mədəniyyəti tarixində öxünəməxsus yeri olan alman ədəbi irsi dünya ədəbiyyatında görkəmli yazıçı və şairlər bəxş etmişdir. Təqdim olunan antologiyaya alman ədəbiyyatının incilərindən- Y.V. Getenin şeirləri, H. Heynenin poeziyasından nümunələr və "Hars səfəri" povesti, Q.E. Lessinqin "Emiliya Qalotti" faciəsi, F. Şillerin "Şərəfini itirmiş cinayətkar" hekayəsi, T. Ştormun "Ögey ana" novellası, F. Volfun və V. Borhertin hekayələri, eləcə də H. Hessenin "Yalquzaq" romanı və F. Nitsşenin "Zərdüşt belə dedi" əsərindən parçalar daxil edilmişdir.

24. 84(4Гем) A 58

**Alman ədəbiyyatı antologiyası**: 2 cilddə / bur. məsul Ə. Güləliyev
**II cild** / tərc.: S. Rəhman [et al.].- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 376 s.- (Dünya ədəbiyyatı)

Dünya və Avropa nağılçıları arasında alman ədəbi nağılının nümayəndələri özünəməxsus yer tutmuşdur. "Baron Münhauzenin sərgüzəştləri", R.E. Raspeyə, " Ağgül və Qızılgül", "Bremen çalğıçıları", "Kiçik gölün su pərisi" Y. və V. Grimm qardaşlarına, "Sinnober ləqəbli Balaca Saxes", "Fındıqqıran və siçanlar padşahı" E.T.A. Hofmana, "Yalançı şahzadə nağılı", "Burun Cırtdan"

və s. nağıllar isə V. Haufa dünya şöhrəti qazandırmışdır.

25. 84(7Бра) A 67 **Amadu, Jorji.** Seçilmiş əsərləri / J. Amadu; tərc., ön sözün müəl. İ. Əlfioğlu, red. M. Qarayev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2009.- 672 s.- (Müasir dünya ədəbiyyatı)

Jorji Amadu "Qum dəryasının kapitanları", "Möcüzələr dükanı", "Pusqu" və s. əsərləri ilə ədəbiyyat tarixində qalmış yazıçıdır. Yazıçının qələmindən çıxan əsərlərin hər sətirindən qaynar həyat çağlayır, cənub temperamentindən qidalanan oynaq, bənzərsiz yumor süzülür.

26. 84(4Дан) A 71 **Andersen, Hans Kristian.** Nağıllar / H. K. Andersen; tərc. M. M. Rzaquluzadə; ön sözün müəl. Ş. Xəlilli; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2004.- 160 s.- (Dünya ədəbiyyatı)

Kitabda XIX əsrin məşhur Danimarka yazıçısı Hans Kristian Andersenin nağılları toplanmışdır. Dinamik süjet, danışıq dilinin sadəliyi və canlılığı, dərin emosionallıq, incə yumor onun nağıllarının xarakterik xüsusiyyətləridir. Andersen uşaq psixologiyasını dərindən duymuş və incəlikləri ilə əks etdirmişdir. Folklordan yaradıcılıqla istifadə etmiş yazıçının nağılları böyüklər üçün də ibrətamizdir.

27. 84(0) A 79 **Antik ədəbiyyat antologiyası**: 2 clddə / tərt. Ə. Sultanlı; bur. məsul U. Rəhimoğlu
**I cild** / tərc.: M. M. Rzaquluzadə [et al.].- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 496 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba qədim yunan xalq ədəbiyyatı nümunələri, müxtəlif əsatirlər və miflər, eyni zamanda antik yunan ədəbiyyatı korifeylərindən Homerin, Hesiodun, Esxilin, Sofoklun, Aristofanın, Aristotelin uzun əsrlər boyu dünya ədəbiyyatı xəzinəsini bəzəyən inciləri daxil edilmişdir.

28. 84(0) A 79 **Antik ədəbiyyat antologiyası**: 2 cilddə / tərt. Ə. Sultanlı; bur. məsul U. Rəhimoğlu
**II cild** / tərc.: B. M. Vahabzadə [et al.].- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 264 s.- (Dünya ədəbiyyatı)

Oxuculara təqdim olunan "Antik ədəbiyyat antologiyası"nın ikinci cildinə qədim Roma ədəbiyyatından nümunələr daxil edilmişdir. Kitab iki bölmədən ibarətdir. "Respublika dövründə Roma ədəbiyyatı" bölməsində Tit Makk Plavt, Publi Terensi, Mark Tuli Siseron, Qay Valeri Katul, "İmperiya dövründə Roma ədəbiyyatı" bölməsində isə Publi Vergili Maron, Kvint Horasi Flakk, Ovidi Nazon, Seneka, Petroni, Fedr, Yuvenal, Tassit, Apuley kimi müəlliflərin əsərləri verilmişdir.

29. 84(5Aze) A 86 **Araz, Məmməd.** Seçilmiş əsərləri: 2 cilddə / M. Araz; tərt. G. Fətəli qızı; ön sözün müəl. Y. V. Qarayev; bur. məsul Ə. Güləliyev
**I cild**: Şeirlər.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 224 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Görkəmli Azərbaycan şairi Məmməd Arazın bu kitabına bütov bir şair ömrünün müxtəlif dövrlərini əhatə edən şeirləri toplanmışdır. Hər bir fərdi Vətənin kiçik bir daşı sayan şairin qələmə aldığı bu şeirlərin hər misrasında düşüncələr çırpınır. Yüksək poetik ilhamla yazılmış bu şeirlərdə Azərbaycan təbiətinin gözəllikləri canlandırılmışdır. Böyük vətəndaşlıq qayəsi, Vətən torpağının əzabına, ağrısına

qatlaşmaq, şimallı, cənublu Azərbaycan torpağının vətəndaşlıq yükünü çəkmək- Məmməd Araz poeziyasının əsas gücü və qüdrəti bundadır.

**30.** **84(5Aze) A 86** **Araz, Məmməd.** Seçilmiş əsərləri: 2 cilddə / M. Araz; tərt. G. Fətəli qızı; bur. məsul Ə. Güləliyev
**II cild**: Şeirlər, poemalar.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 232 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Bu kitabda Azərbaycanın xalq şairi Məmməd Arazın bir şair ömrünün müxtəlif dövrlərini əhatə edən əsərlərindən seçmələr toplanmışdır. Canlı müşahidələrin təsiri ilə qəlbin yaddaşına yazılan bu əsərlərin iki təməl daşı var: doğma təbiətə vaqiflik və ana dilinin bütün incəliklərinə bələdlik.

**31.** **84(5Aze) A 93** **Aslan, Məmməd.** Seçilmiş əsərləri / M. Aslan; red. T. Qaraqaya; bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2006.- 320 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Tanınmış şair Məmməd Aslanın bu kitabı onun ömür yoluna, yaradıcılığına bir növ güzgü tutur, qədim torpağımızın, keşməkeşli dünyamızın zərif ovqatını özündə əks etdirir.

**32.** **84(5Aze) A 94** **Aşıq Şəmşir**. Seçilmiş əsərləri / Aşıq Şəmşir; red. T. Qaraqaya; bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2006.- 400 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Sazımızın və sözümüzün böyük yaradıcılarından olan əməkdar mədəniyyət xadimi Aşıq Şəmşirin bu nəşrində unudulmaz sənətkarın zəngin irsindən seçmə bir güldəstə araya-ərsəyə gətirilmişdir. Burada uzun ömür və keşməkeşli həyat yaşamış ünlü ozanımızın dürlü-dürlü sənət ovqatları və onun həssaslıqla misra sığalına gətirdiyi ölməz könül çırpıntıları ilə qarşılaşacaqsınız.

**33.** **84(5Кир) A 98** **Aytmatov, Çingiz Torekuloviç.** Seçilmiş əsərləri / Ç. T. Aytmatov; tərc.: İ. İ. İbrahimov [et al.]; tərt. A. Hacıyev; ön sözün müəl. B. M. Vahabzadə; red. F. E. Quliyev.- Bakı: Şərq-Qərb, 2009.- 760 s.- (Müasir dünya ədəbiyyatı)

Zəmanəmizin görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun yaradıcılığı dərin milli xüsusiyyətlərə malik olduğu kimi, həm də ümumbəşəri mahiyyət və məzmun kəsb edir. Onun dünya ədəbiyyatında böyük hadisə sayılan əsərləri realizmin tükənməz bədii və idraki gücünü nümayiş etdirir. Seçilmiş əsərlərinin bircildliyinə böyük yazıçının "Gün var əsrə bərabər" romanı ilə yanaşı, "Əlvida, Gülsarı!", "Dəniz kənarıyla qaçan Alabaş", "Ağ gəmi" və "Cəmilə" povestləri daxil edilmişdir.

**34.** **84(5Кир) A 98** **Aytmatov, Çingiz Torekuloviç.** Seçilmiş əsərləri: 2 cilddə / Ç. T. Aytmatov; ön sözün müəl. B. M. Vahabzadə; bur. məsul Ə. Güləliyev
**I cild** / tərc.: İ. İ. İbrahimov, X. S. Əliyev, C. A. Əlibəyov.- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2004.- 504 s.- (Dünya ədəbiyyatı)

Çingiz Aytmatovun dünya ədəbiyyatında böyük hadisə sayılan əsərləri realizmin tükənməz bədii və idraki gücünü nümayiş etdirir. Ç. Aytmatov üçün ədəbiyyatda bir "böyük mövzu"- insan mövzusu var. Seçilmiş əsərlərinin bu cildinə böyük yazıçının "Gün var əsrə bərabər" romanı ilə yanaşı "Dəniz kanarıyla qaçan Alabaş" və "Ağ gəmi" povestləri daxil edilmişdir.

35. 84(5Кир) A 98

**Aytmatov, Çingiz Torekuloviç.** Seçilmiş əsərləri: 2 cilddə / Ç. T. Aytmatov; bur. məsul Ə. Güləliyev
**II cild** / tərc. C. A. Əlibəyov [et al.].- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2004.- 385 s.- (Dünya ədəbiyyatı)

Qırğız xalqının qüdrətli oğlu Çingiz Aytmatovun adı dünyanın ən böyük yazıçılarının adları ilə bir sırada çəkilir. Bu kitabda şöhrətli yazıçının "Ana tarla", "Cəmilə", "Əlvida, Gülsarı!" və "Çingiz xanın ağ buludu" əsərləri toplanmışdır.

36. 84(5Aze) A 99

**Azərbaycan dramaturgiyası antologiyası**: 5 cilddə / tərt., ön sözün müəl. D. Məmmədova, bur. məsul Ə. Güləliyev
**I cild**.- Bakı: Şərq-Qərb, 2007.- 472 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Cildə Azərbaycan dramaturgiyasının nümayəndələrindən Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Cəlil Məmmədquluzadə, Haşım bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov və Cəfər Cabbarlının əsərləri daxil edilmiıdir.

37. 84(5Aze) A 99

**Azərbaycan dramaturgiyası antologiyası**: 5 cilddə / tərt. D. Məmmədova; bur. məsul Ə. Güləliyev
**II cild**.- Bakı: Şərq-Qərb, 2007.- 512 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Bu cildə Azərbaycan dramaturgiyasının nümayəndələrindən Səməd Vurğun, Məcid Şamxalov, Mehdi Hüseyn, Sabit Rəhman, İlyas Əfəndiyev, Seyfəddin Dağlı, Şıxəli Qurbanov və Nəbi Xəzrinin əsərləri daxil edilmiıdir.

38. 84(5Aze) A 99

**Azərbaycan dramaturgiyası antologiyası**: 5 cilddə / tərt. D. Məmmədova; bur. məsul Ə. Güləliyev
**III cild**.- Bakı: Şərq-Qərb, 2007.- 544 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Bu cildə Azərbaycan dramaturgiyasının nümayəndələrindən Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Maqsud İbrahimbəyov, Kəmalə, Əkrəm Əylisli, Anar, Vaqif Səmədoğlu və Rüstəm İbrahimbəyovun əsərləri daxil edilmiıdir.

39. 84(5Aze) A 99

**Azərbaycan dramaturgiyası antologiyası**: 5 cilddə / tərt. D. Məmmədova; bur. məsul Ə. Güləliyev
**IV cild**.- Bakı: Şərq-Qərb, 2007.- 584 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Cildə Azərbaycan dramaturgiyasının nümayəndələrindən Aslan Qəhrəmanlı, Mustafa İskəndərzadə, Arif Abdullazadə, İnqilab Nadirli, Elçin, Hidayət, Əli Əmirli, Kamal Abdulla, Mənzər Nigarlı, Elçin Mehrəliyev, Firuz Müstafa, Əmir Pəhləvan və Elçin Hüseynbəylinin əsərləri daxil edilmişdir.

40. 84(5Aze) A 99

**Azərbaycan dramaturgiyası antologiyası**: 5 cilddə / tərt. D. Məmmədova; bur. məsul Ə. Güləliyev
**V cild**.- Bakı: Şərq-Qərb, 2007.- 304 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Bu cildə Azərbaycan dramaturgiyasının nümayəndələrindən Mir Mehdi Seyidzadə, Xalidə Hasilova, İslam Səfərli, Adil Babayev, Söhrab Tahir AzərAzərin əsərləri daxil edilmiıdir.

41. 84(5Aze) A 99 **Azərbaycan qadın şairləri antologiyası** / tərt. Ə. M. Cəfərzadə; ön sözün müəl. N. Rəfibəyli; red.: T. Qaraqaya, L. Əliyeva.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2005.- 256 c.- (Ədəbiyyat antologiyaları)

"Azərbaycan qadın şairləri antologiyası" Azərbaycan qadınlığının poetik salnaməsidir. Salnamə neçə-neçə Azərbaycan şairəsinin çoxəsrlik fəaliyyəti, ilhamı, yanğısı nəticəsində yaranmışdır. Kitaba Güneyli-Quzeyli Azərbaycanımızın aşıq və şair qadınlarının poetik dünyasından nümunələr daxil edilmişdir.

42. 84(5Aze) A 99 **Azərbaycan nəsri antologiyası**: 5 cilddə / tərt., ön sözün müəl. Z. Əsgərli, bur. məsul Ə. Güləliyev
**I cild**: XIX əsr / A. Bakıxanov [et al.].- Bakı: Şərq-Qərb, 2006.- 312 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda XIX əsr Azərbaycan nəsrinin nümayəndələrindən Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov və Sultanməcid Qənizadənin nəsr əsərlərindən nümunələr verilmişdir.

43. 84(5Aze) A 99 **Azərbaycan nəsri antologiyası**: 5 cilddə / tərt., ön sözün müəl. Z. Əsgərli, bur. məsul Ə. Güləliyev
**II cild**: XX əsrin əvvəlləri / C. H. Məmmədquluzadə [et al.].- Bakı: Şərq-Qərb, 2006.- 368 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda XX əsrin əvvəlləri Azərbaycan nəsrinin nümayəndələrindən Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Süleyman Sani Axundov, Sultanməcid Qənizadə, İbrahim bəy Musabəyov, Abdulla Şaiq, Əlabbas Müzhib, Abdulla bəy Divanbəyoğlu, Yusif Vəzir Çəmənzəminli və Cəfər Cabbarlının nəsr əsərlərindən nümunələr verilmişdir.

44. 84(5Aze) A 99 **Azərbaycan nəsri antologiyası**: 5 cilddə / tərt. Z. Əsgərli; ön sözün müəl. Z. Əlişanoğlu; bur. məsul Ə. Güləliyev
**III cild**: 1920-1930-cu illər / M. S. Ordubadi [et al.].- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 416 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda 1920-1930-cu illər Azərbaycan nəsrinin nümayəndələrindən Məmməd Səid Ordubadi, Seyid Hüseyn, Qantəmir, Tağı Şahbazi Simurğ, Hacıbaba Nəzərli, Böyükağa Talıblı, Əvəz Sadıq, Əli Vəliyev, Əbülhəsən Ələkbərzadə, Mir Cəlal, Mehdi Hüseyn, Sabit Rəhman, Mirzə İbrahimov, Ənvər Məmmədxanlı və İlyas Əfəndiyevin nəsr əsərlərindən nümunələr verilmişdir.

45. 84(5Aze) A 99 **Azərbaycan nəsri antologiyası**: 5 cilddə / tərt.: Z. Əsgərli, M. Ç. Fərzəliyeva; ön sözün müəl.: B. Ə. Nəbiyev, Z. Əsgərli; bur. məsul Ə. Güləliyev
**IV cild**: 1940-1950-ci illər / S. H. Rəhimov [et al.].- Bakı: Şərq-Qərb, 2006.- 312 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda 1940-1950-ci illər Azərbaycan nəsrinin nümayəndələrindən Süleyman Rəhimov, Qılman İlkin, Süleyman Vəliyev, Bayram Bayramov, İsmayıl Şıxlı, Məmməd Aranlı, Hüseyn Abbaszadə, Fəthi Xoşginabi, Salam Qədirzadə, Gülhüseyn Hüseynoğlu, Məmmədrza Afiyət, Bidadi Babanlı, İsa Hüseynov, Sabir Əhmədov, İsi Məlikzadə, Yusif Səmədoğlunun əsərlərindən nümunələr verilmişdir.

46. 84(5Aze)
A 99

**Azərbaycan nəsri antologiyası**: 5 cilddə / tərt. Z. Əsgərli; ön sözün müəl. V. Yusifli; bur. məsul Ə. Güləliyev
**V cild**: 1960-cı ildən sonrakı dövr / M. M. İbrahimbəyov [et al.].- Bakı: Şərq-Qərb, 2006.- 352 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda 1960-cı illərdən sonrakı dövr Azərbaycan nəsrinin nümayəndələrindən Maqsud İbrahimbəyov, Əkrəm Əylisli, Anar, Çingiz Hüseynov, Əfqan, Çingiz Ələkbərzadə, Fərman Kərimzadə, Sabir Azəri, Vaqif Nəsib, Elçin, Mövlud Süleymanlı, Məmməd Oruc, Mənzər Nigarlı, Firuz Müstafa, Aqil Abbas, Baba Vəziroğlu, Saday Budaqlı, Afaq Məsud, Elçin Hüseynbəyli, Rəşad Məcid və Orxan Fikrətoğlunun nəsr əsərlərindən nümunələr verilmişdir.

47. 84(5Aze)
A 99

**Azərbaycan publisistikası antologiyası** / H. Zərdabi [et al.]; tərt. C. Bəydili; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 688 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Azərbaycan klassik publisistikasının təqdim olunduğu bu kitabda klassik publisistikamızın milli-mənəvi dəyərlərə, müstəqillik ideyalarına, Vətənə və müqəddəs torpağa, azərbaycanlılıq ideyalarına söykənən seçmə nümunələrinin bir qismi toplanmışdır.

48. 84(5Aze)
A 99

**Azərbaycan uşaq ədəbiyyatı** antologiyası: 3 cilddə / tərt. Q. M. Namazov; red. T. Ə. Əhmədov
**I cild**: XX əsrə qədərki uşaq şeiri.- Bakı: Öndər nəşriyyat, 2005.- 248 s.- (Ədəbiyyat antologiyaları)

Azərbaycan uşaq ədəbiyyatının ən əsas və aparıcı qolu uşaq poeziyasıdır. Məktəb yaşları üçün nəzərdə tutulan "Azərbaycan uşaq ədəbiyyatı antologiyası"nın bu cildində XX əsrə qədərki Azərbaycan poeziyasından seçmələr təqdim olunmuşdur.

49. 84(5Aze)
A 99

**Azərbaycan uşaq ədəbiyyatı** antologiyası: 3 cilddə / tərt. Q. M. Namazov; red. T. Ə. Əhmədov
**II cild**: XX əsr uşaq şeiri.- Bakı: Öndər nəşriyyat, 2004.- 264 s.- (Ədəbiyyat antologiyaları)

XX əsr Azərbaycan poeziyasının həm mövzu, həm də forma, janr və sənətkarlıq xüsusiyyətləri barədə dolğun təsəvvür yaradan bir sahəsi də uşaq şeiridir. Bu dövrün milli uşaq poeziyası janr baxımından da əlvandır. "Azərbaycan uşaq ədəbiyyatı antologiyası"nın II cildində XX əsrin Azərbaycan uşaq poeziyası təmsil, mənzum hekayə, didaktik nəsihətlərlə yanaşı təbiət mövzulu lirik və süjetli şeir, mənzum nağıl kimi əbədi nümunələrlə təmsil olunur.

50. 84(5Aze)
A 99

**Azərbaycan uşaq ədəbiyyatı** antologiyası: 3 cilddə / tərt. Q. M. Namazov; red. T. Ə. Əhmədov
**III cild**: Nəsr.- Bakı: Öndər nəşriyyat, 2005.- 240 s.- (Ədəbiyyat antologiyaları)

"Azərbaycan uşaq ədəbiyyatı"nın təqdim olunan cildində Azərbaycan yazıçılarının uşaqlar üçün qələmə aldıqları nəsr əsərlərindən nümunələr toplanmışdır.

51. 84(5Aze)
A 99

**Azəroğlu, Balaş.** Seçilmiş əsərləri / B. Azəroğlu; bur. məsul Ə. Güləliyev.- Bakı: Öndər nəşriyyat, 2004.- 288 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda şairin müxtəlif illərdə qələmə aldığı rəngarəng mövzulu şeir və

poemaları toplanmışdır. Bu əsərlərdə Cənub mövzusu, Vətən təbiətinin gözəlliklərinin tərənnümü, lirik duyğuların ifadəsi ilə yanaşı, ictimai-fəlsəfi problemlər də öz əksini tapmışdır.

**52.** **84(4Фра)** **B 23** **Balzak, Onore de.** Seçilmiş əsərləri / O. Balzak; tərc. M. H. Rəfili; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 408 s.- (Dünya ədəbiyyatı)

Fransa yazıçısı Onore de Balzakın yaradıcılığında burjua cəmiyyəti və onun əxlaqının eybəcərliyi, şəhvət hərisliyi nəticəsində törədilən rəzalət və cinayətləri əks etdirən əsərləri Balzak realizminin əsasını təşkil edir. İstər sələmçi Qobsek ("Qobsek"), istərsə də zabit Şaber ("Polkovnik Şaber") və başqalarının pula, sərvətə, cah-calala, eyş-işrətə aludəçilik bu personajları ümumiləşdirir və cəmiyyətin qurbanına çevirir. Qazanc ehtirası bəlası onları mənəvi uçuruma aparır. Elə Qorio atanın ("Qorio ata") özü də pozğun, amansız burjua cəmiyyətinin və əxlaqının qurbanıdır.

**53.** **84(2Рос=Рус)6** **B 26** **Barto, Aqniya Lvovna.** Seçilmiş əsərləri / A. L. Barto; rus dilindən tərc.: T. Mahmud [et al.]; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 184 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba rus uşaq ədəbiyyatının olduqca maraqlı və nadir simalarından biri, gözəl insan, gənc nəslin tərbiyəsində mühüm rol oynayan Aqniya Lvovna Bartonun uşaqlara və məktəblilərə həsr edilmiş şeirləri toplanmışdır.

**54.** **84(4Вел)** **B 32** **Bayron, Corc Qordon.** Seçilmiş əsərləri / C. Q. Bayron; tərc.: M. A. Təhmasib [et al.]; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 224 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba dünya, Avropa və ingilis ədəbiyyatında mütərəqqi romantizmin görkəmli nümayəndələrindən biri sayılan Corc Qordon Bayronun azadlıq ideyaları tərənnüm olunan, maarifçilik görüşləri rəğbətlə qarşılanan "Gavur", "Abidos gəlini", "Korinfin alınması", "Şilyon məhbusu", "Mazepa" adlı mübariz ruhlu fəlsəfi-dramatik poemaları və "Qabil" pyesi daxil edilmişdir.

**55.** **84(5Aze)** **B 65** **Billuri, Həkimə.** Seçilmiş əsərləri / H. Billuri; tərt., ön sözün müəl. A. İ. Kəngərli, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2005.- 224 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda istedadlı şairənin müxtəlif illərdə yazdığı əsərlərindən seçmələr toplanmışdır. Bu poetik nümunələrdə ikiyə bölünmüş vətənin bütövlüyü arzusu, onun gələcəyinə dərin inam, Güney Azərbaycan milli-azadlıq hərəkatı, təbiətə və insana sevgi motivləri aparıcı yer tutur.

**56.** **84(2Рос=Рус)** **B 70** **Blok, Aleksandr Aleksandroviç.** Seçilmiş əsərləri / A. A. Blok; rus dilindən tərc.: E. Borçalı [et al.]; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 144 s.- (Dünya ədəbiyyatı)

Kitaba rus poeziyasının görkəmli və qüdrətli şairlərindən biri Aleksandr Aleksandroviç Blokun rus torpağının və təbiətinin rəngarəng gözəlliklərindən, lirik şairin həyata fəlsəfi və romantik baxışlarından, yüksək vətəndaşlıq motivlərindən bəhs edən şeirləri və poemaları daxil edilmişdir.

**57.** **84(4Гем)** **B 83** **Böll, Haynrix Teodor.** Seçilmiş əsərləri / H. T. Böll; rus dilindən tərc. Ə. Əylisli, alman dilindən tərc.: V. Hacıyev, Ç. Qurbanlı, A. Nəbi, tərt., ön sözün müəl. V. T. Hacıyev, red. A. Dadaşov.- Bakı: Şərq-Qərb, 2009.- 600 s.- (Nobel

mükafatı laureatlarının əsərləri)

Bu kitabda XX əsr dünya ədəbiyyatının görkəmli simalarından biri, Nobel mükafatı laureatı Haynrix Böllün Azərbaycan oxucularına artıq tanış olan "O illərin çörəyi" povesti ilə yanaşı, alman dilindən tərcümə olunmuş "Bir təlxəyin düşüncələri" romanı və hekayələri təqdim olunur.

**58.** **83.3(4Фра) B 87** **Bualo, Nikola.** Poeziya sənəti / N. Bualo; tərc., ön sözün müəl. Ə. M. Ağayev, bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 112 s.- (Dünya ədəbiyyatı)

Məşhur fransız tənqidçisi, klassisizm nəzəriyyəçisi Nikola Bualonun (1636-1711) nəzəri görüşləri XVII-XVIII əsrlər Avropa ədəbiyyatı və estetik fikrinin inkişafına təsir göstərmişdir. Bu kitaba fransız nəzəri-estetik prinsiplərinin şərh olunduğu ən mühüm "Poeziya sənəti" əsəri ilə yanaşı müəllifin yaradıcılığından digər nümunələr ("Rasinə VII məktub", "Romanların qəhrəmanları" və "Fransa Akademiyasının üzvü cənab Perroya məktub") də daxil edilmişdir.

**59.** **84(2Рос=Рус)6 B 91** **Bulqakov, Mixail Afanasyeviç.** Master və Marqarita / M. A. Bulqakov; rus dilindən tərc. S. Budaglı; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 376 s.- (Dünya ədəbiyyatı)

Görkəmli rus yazıçısı M.A. Bulqakovun "Master və Marqarita" romanı onun ən məşhur əsəridir. Yazıçı bu romanda Ponti Pilat və İeşua obrazları vasitəsi ilə mənəvi-əxlaqi problemlərə toxunur, hər kəsin öz əməllərinə görə cavabdeh olduğunu, haqq-ədalət qarşısında məsuliyyət daşıdığını göstərir. Əsərdə Master və Marqaritanın ağrılı, ürək sızıldadan məhəbbət macərasına da böyük yer ayrılıb; həmçinin keçən əsrin 20-ci illər Moskvası, meşşanlıq, ikiüzlülük, tamahkarlıq satirik bir dillə tənqid olunur.

**60.** **84(2Рос=Рус)1 B 91** **Bunin, İvan Alekseyeviç.** Seçilmiş əsərləri / İ. A. Bunin; rus dilindən tərc. H. Şərif; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 320 s.- (Dünya ədəbiyyatı)

İ.A. Buninin hekayə və povestləri öz orijinallığı, rəngarəngliyi və yığcamlığı ilə seçilir. Rus xalq dilinin incəliklərinə bələd olan yazıçı kənd həyatından, nakam məhəbbətdən, qəddar mülkədarların amansızlığından, azad fikirli insanların xeyirxah əməyindən bəhs edir.

**61.** **84(5Aze) B 98** **Bürhanəddin, Qazi.** Divan / Q. Bürhanəddin; tərt. Ə. Q. Səfərli; red. S. Əlizadə.- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2005.- 728 s.

Azərbaycan anadilli şeirinin böyük nümayəndəsi, XIV yüzillikdə yaşamış qüdrətli şair Qazi Bürhanəddinin "Divan"ı doğma dilimizdə yazılan və günümüzə qədər gəlib çatan ilk şeir divanıdır. Qazi Bürhanəddin Azərbaycan divan ədəbiyyatının özülünü qoymuş, klassik poeziyanın ilkin gözəl nümunələrini yaratmışdır.

**62.** **84(5Aze) C 50** **Cəfərzadə, Əzizə Məmməd qızı.** Aləmdə səsim var mənim: roman / Ə. M. Cəfərzadə; ön sözün müəl. V. Sultanlı; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 432 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Roman XIX əsrin böyük şairi və maarifçisi Seyid Əzim Şirvaninin həyatından bəhs edir. Romanda Seyid Əzimin bir maarifçi olaraq formalaşması təsvir olunan dövrün səciyyəvi hadisələri fonunda göstərilir.

63. 84(5Aze) C 50 **Cəfərzadə, Əzizə Məmməd qızı.** Eldən-elə: tarixi roman / Ə. M. Cəfərzadə; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 384 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitaba daxil edilmiş "Eldən-elə" tarixi romanı həyatının otuz yeddi ilini səyahətdə keçirmiş XIX yüzilin Azərbaycan alimi və səyyahı Zeynalabdin Şirvaninin həyatından bəhs edir.

64. 84(4Ита) C 87 **Covanyoli, Rafaello.** Spartak: roman / R. Covanyoli; tərc. B. A. Musayev; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 584 c.- (Dünya ədəbiyyatı)

İctimai həyatla, çətinliklər və maneələrlə üz-üzə gələn Spartak- cəsarəti, qorxmazlığı, bacarığı ilə ilotları və plebeyləri "Yaşasın Azadlıq!" şüarı və nidaları ilə öz ardınca aparmağa, onları quldarlara, senzorlara, senatorlara, patrisilərə qarşı mübarizəyə qaldırmağa malik bir xalq qəhrəmanıdır.

65. 84(4Чех) Ç 23 **Çapek, Karel.** Seçilmiş əsərləri / K. Çapek; tərc.: R. Nağıyev, A. Qəmbərov, Ə. Sadıq; tərt., ön sözün müəl. E. Mehri; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 160 s.- (Dünya ədəbiyyatı)

Tanınmış çex yazıçısı, sosial fantastikanın inkişafına əhəmiyyətli təsir göstərən Karel Çapekin yaradıcılığında yol qeydləri, hekayələr, utopik povestləri və pyesləri üstünlük təşkil edir. Bu topluya daxil edilən seçmə əsərlərdə militarizm, faşizm, irqçilik nəzəriyyəsi pislənir, meşşanlıq, məmurlar, hakimlər dolğun boyalarla ifşa edilir və kəskin satira atəşinə tutulur.

66. 84(2Рос=Рус)1 Ç 34 **Çexov, Anton Pavloviç.** Seçilmiş əsərləri / A. P. Çexov; tərc.: R. Ağayev [et al.]; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 320 s.- (Dünya ədəbiyyatı)

Rus realist nəsrinin görkəmli nümayəndəsi A.P. Çexov "Qızıl əsr" adlanan XIX əsrin ədəbi simaları arasında xüsusi yeri olan yazıçılardan biridir. Bu kitaba ədibin "İvanov", "Qağayı", "Vanya dayı", "Üc bacı", "Albalı bağı" və "Ayı" pyesləri daxil edilmişdir.

67. 84(2Рос=Рус)1 Ç 34 **Çexov, Anton Pavloviç.** Seçilmiş əsərləri / A. P. Çexov; tərc.: Q. Musayev [et al.]; ön sözün müəl. R. Quliyeva; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2005.- 432 s.- (Dünya ədəbiyyatı)

Dünya ədəbiyyatında ən görkəmli yerlərdən birini tutan böyük rus yazıçısı A. P. Çexov öz əsərlərində yaşadığı dövrün ən real səhnələrini, ictimai həyatın səciyyəvi tərəflərini əks etdirmişdir. Hekayə sahəsindəki fəaliyyəti ilə bütün dünya ədəbiyyatında diqqəti cəlb etmiş Çexov üçün bir novator yazıçı kimi təmkinli, lakonik təhkiyə üslubu xarakterikdir. Əsas diqqəti qəhrəmanın daxili aləminə yönəldən müəllifin əsərlərində adətən gərgin süjet, konflikt yoxdur. Həmin əsərlərdəki özünəməxsus yumor bu mənada lirik təbəssümü, ciddi istehza və satiranı özündə birləşdirən tragikomik gülüşdür.

68. 84(2Рос=Рус)1 Ç 34 **Çexov, Anton Pavloviç.** Seçilmiş əsərləri / A. P. Çexov; tərc.: Q. Musayev [et al.]; tərt., ön sözün müəl. R. Quliyeva; red. S. Novruzov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2009.- 456 s.- (Dünya ədəbiyyatı klassikləri)

Dünya ədəbiyyatında ən görkəmli yerlərdən birini tutan böyük rus yazıçısı A. P. Çexov (1860-1904) öz əsərlərində yaşadığı dövrün ən real səhnələrini,

ictimai həyatın səciyyəvi tərəflərini əks etdirmişdir. Hekayə sahəsindəki fəaliyyəti ilə bütün dünya ədəbiyyatında diqqəti cəlb etmiş Çexov üçün bir novator yazıçı kimi təmkinli, lakonik təhkiyə üslubu xarakterikdir. Əsas diqqəti qəhrəmanın daxili aləminə yönəldən müəllifin əsərlərində adətən gərgin süjet, konflikt yoxdur. Həmin əsərlərdəki özünəməxsus yumor bu mənada lirik təbəssümü, ciddi istehza və satiranı özündə birləşdirən tragikomik gülüşdür.

**69.** **84(2Рос=Рус)6**
**Ç 82**

**Çukovski, Korney İvanoviç.** Seçilmiş əsərləri / K. İ. Çukovski; rus dilindən tərc.: T. Elçin, Ə. Şükürlü; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 160 s.- (Dünya ədəbiyyatı)

Kitaba Korney Çukovskinin insanlarda yüksək mənəvi və əxlaqi hisslər aşılayan "Gümüş gerb" povesti və azyaşlı oxucuların dillər əzbəri olan "Milçək-vizilcək", "Qorxunc tarakan", "Moydodır", "Aybolit" şeirləri daxil edilmişdir.

**70.** **84(5Aze)**
**D 20**

**Dastani-Əhməd Hərami** / tərt., ön sözün müəl. Ə. Q. Səfərli, bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2004.- 120 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

XIII əsr Azərbaycan poeziyasının ən gözəl nümunələri sırasına daxil olan "Dastani-Əhməd Hərami doğma dilimizdə qələmə alınmış ilk məsnəvi kimi qiymətlidir. Müəllifi bəlli olmayan bu əsər əruz vəznində, sadə və aydın dildə yazılmışdır, lakin bu vəzn şeiri tam özünə tabe edə bilməmiş, Azərbaycan şeirinin milli bədii-poetik əsasını dəyişdirməmişdir. Ona görə heca vəznli şeir kimi də oxunur.

**71.** **84(4Вел)**
**D 26**

**Defo, Daniel.** Robinzon Kruzo: roman / D. Defo; tərc. Ə. M. Ağayev; ön sözün müəl. N. Nuriyeva; red. F. Əliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2009.- 480 s.- (Dünya ədəbiyyatı klassikləri)

Məşhur ingilis yazıçısı Daniel Defonun "Robinzon Kruzo" romanında adam yaşamayan adaya düşmüş insanın təbiət qüvvələrinə qarşı mübarizə əzmi, iradə möhkəmliyi, dözümlülüyü, yaradıcı əməyi tərənnüm olunur.

**72.** **84(5Инд)**
**D 44**

**Dəhləvi, Əmir Xosrov.** Şirin və Xosrov / Ə. X. Dəhləvi; tərc., ön sözün müəl. A. Sarovlu, bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2006.- 248 s.- (Dünya ədəbiyyatı)

Özünəməxsus yaradıcılıq üslubu ilə yalnız hind obrazlı təfəkkür tarixini deyil, həmçinin Yaxın və Orta Şərq xalqlarının mənəvi xəzinəsini zənginləşdirən Əmir Xosrov Dəhləvi "Şirin və Xosrov" poemasını yaradarkən bədii söz sənətinin bütün incəliklərindən istifadə etmiş, nadir söz abidəsi ucaltmışdır. Bu əsər dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasına cavab olaraq 1298-ci ildə qələmə alınmışdır. Nizami yaradıcılığından qidalanan şoxsaylı poetik nümunələr sırasında "Şirin və Xosrov" poemasının xüsusi yeri var.

**73.** **84(5Aze)**
**D 58**

**Dilbazi, Mirvarid Paşa qızı.** Seçilmiş əsərləri / M. P. Dilbazi; red. V. Vüqarlı; bur. məsul Ə. Güləliyev.- Bakı: Lider nəşriyyat, 2004.- 280 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Xalq şairi M. Dilbazinin bu kitabına son illərdə yazdığı şeirləri və poemaları daxildir. Kitab 8 bölmədən ibarətdir. Hər bölmə bitkin bir poetik əhval-ruhiyyəni səciyyələndirir.

| | | |
|---|---|---|
| 74. | 84(5Aze)<br>D 63 | **Divanbəyoğlu, Abdulla bəy.** Seçilmiş əsərləri / A. Divanbəyoğlu; tərt., ön sözün müəl. İ. Bəktaşi, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 184 s.- (Klassik Azərbaycan ədəbiyyatı)<br><br>Bu kitaba Abdulla bəy Divanbəyoğlunun hekayə və povestləri daxil edilmişdir. XX əsrin əvvəllərindəki dövrün mürəkkəb, sinfi ziddiyyətlərlə dolu səhnələri, Azərbaycan qadınlarının keçmiş həyatı, onların acınacaqlı və hüquqsuz vəziyyəti bu əsərlərin əsas mövzusudur. |
| 75. | 84(2Рос=Рус)1<br>D 78 | **Dostoyevski, Fyodor Mixayloviç.** Seçilmiş əsərləri: 3 cilddə / F. M. Dostoyevski<br>**I cild**: Cinayət və cəza / tərc. B. A. Musayev; ön sözün müəl. M. Qocayev; red. E. Muradov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2009.- 584 s.- (Dünya ədəbiyyatı klassikləri)<br><br>XIX əsrin böyük rus yazıçısı, rus milli ruhunun dərin ifadəçisi F.M. Dostoyevski dünya ədəbiyyatının, eləcə də fəlsəfi və estetik fikrinin inkişafına güclü təsir göstərmişdir. Dostoyevski realizminin əsasında insan iztirabları, tapdalanmış və təhqir edilmiş şəxsiyyətin faciəsi dayanır. Belə şəxsiyyətlərdən biri - "Cinayət və cəza" romanının qəhrəmanı Raskolnikovdur. Dostoyevskiyə görə, hüquqi cəzadan daha ağır olan bir cəza var ki, o da mənəvi işgəncələr, insanın öz-özünü ittiham etməsi və cəzalandırılmasıdır. |
| 76. | 84(2Рос=Рус)1<br>D 78 | **Dostoyevski, Fyodor Mixayloviç.** Seçilmiş əsərləri: 3 cilddə / F. M. Dostoyevski<br>**II cild**: İdiot / tərc. H. Şərif; red. Ə. Nəsirli.- Bakı: Şərq-Qərb, 2009.- 744 s.- (Dünya ədəbiyyatı klassikləri)<br><br>Dahi rus yazıçısı Dostoyevskinin 1860-1870-ci illərdə yaratdığı məşhur "Cinayət və cəza", "İdiot", "Şeytanlar", "Yeniyetmə" və "Karamazov qardaşları" fəlsəfi romanlarında Yer kürəsinin bütün iniltiləri, dərddən ağlını itirmiş adamların sayıqlamaları öz əksini tapmışdır... Ana xəttini insanın daxili ziddiyyətləri təşkil edən həmin romanlar arasında "İdiot" ən lirik əsərdir. Ölməz sənətkarın məşhur "Dünyanı gözəllik xilas edəcək" kəlamı romanda bütün gerçək əzəmətiylə səslənir. |
| 77. | 84(2Рос=Рус)1<br>D 78 | **Dostoyevski, Fyodor Mixayloviç.** Alçaldılmış və təhqir edilmiş insanlar: roman / F. M. Dostoyevski; rus dilindən tərc. B. A. Musayev; ön sözün müəl. M. Cəfər; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 376 s.- (Dünya ədəbiyyatı)<br><br>XIX əsr rus ədəbiyyatının parlaq simalarından biri, rus milli ruhunun dərin ifadəçisi Fyodor Mixayloviç Dostoyevski dünya ədəbiyyatının, eləcə də fəlsəfi-estetik fikrinin inkişafına güclü təsir göstərmişdir. Müəllifin "Alçaldılmış və təhqir edilmiş insanlar" romanında psixoloji realizminin leytmotivi sayılan insan iztirabları, tapdalanmış və təhqir edilmiş şəxslərin faciəsi dayanır, "yüksək cəmiyyət" tərəfindən "kiçik insanlar"a edilən maddi və mənəvi işgəncələr təsvir olunur. Əsərdə ictimai həyatın, ictimai münasibətlərin və insanın mənəvi aləminin bir çox cəhətlərinə toxunulur. |
| 78. | 84(2Рос=Рус)1<br>D 78 | **Dostoyevski, Fyodor Mixayloviç.** Cinayət və cəza / F. M. Dostoyevski; tərc. B. A. Musayev, tərt., ön sözün müəl. M. Qocayev.- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2004.- 560 s.- (Dünya ədəbiyyatı)<br><br>Dostoyevski realizminin əsasında insan iztirabları, tapdalanmış və təhqir edilmiş |

şəxsiyyətin faciəsi dayanır. Belə şəxsiyyətlərdən biri oxucuların diqqətinə təqdim olunan bu kitabın- "Cinayət və cəza" romanının qəhrəmanı Raskolnikovdur. Yazıçı humanist niyyətlərini şər yolla həyata keçirməyə cəhd eləyən qəhrəmanının tutduğu yolu inkar edir və çıxış yolunu insanın gerçəkliklə barışmasında görürdü. Dostoyevskiyə görə, hüquqi cəzadan daha ağır olan bir cəza var ki, o da mənəvi işgəncələr, insanın özü-özünü ittiham etməsi və cəzalandırmasıdır. Bu mənada bütün ictimai, mənəvi problemlərin həlli insanın mənən kamilləşməsindən, öz ehtirasları üzərində qələbəsindən keçir.

**79.** **84(2Рос)** **D 78** **Dostoyevski, Fyodor Mixayloviç.** İdiot: roman / F. M. Dostoyevski; tərc. H. Şərif; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 728 s.- (Dünya ədəbiyyatı)

Müəllifin irihəcmli əsərləri arasında "İdiot" ən lirik olanıdır. Müəllif burada, özünün daim cəhd etdiyi roman-poemanı daha artıq uğurla yarada bilmişdir. Dostoyevskiyə görə, riyakarlıq və cinayətlər dünyasını həqiqət və yüksək ahəngdarlıq səltənətinə çevirməyə qabil olan çox böyük bir qüvvə var: gözəllik. Ölməz sənətkarın məşhur "Dünyanı gözəllik xilas edəcək" kəlamı məhz bu əsərdə özünün həqiqi ifadəsini tapır.

**80.** **84(7Сое)** **D 84** **Drayzer, Teodor.** Cenni Herhardt: roman / T. Drayzer; tərc. C. Bağır; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 360 s.- (Dünya ədəbiyyatı)

Amerika ədəbiyyatında realizmin ən görkəmli nümayəndələrindən biri, tanınmış yazıçı Teodor Drayzerin "Cenni Herhardt" romanında pulun, kapitalın, var-dövlətin Cenni kimi sadə insanların taleyini, davranışını, həyatını, mənəviyyatını pozan Amerika həyat tərzi, inhisarçı kapitalizm tənqid edilir.

**81.** **84(7Сое)** **D 84** **Drayzer, Teodor.** Kerri bacı: roman / T. Drayzer; tərc. C. Bağır; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 472 s.- (Dünya ədəbiyyatı)

Amerika ədəbiyyatında realizmin ən görkəmli nümayəndələrindən biri, tanınmış yazıçı Teodor Drayzerin "Kerri bacı" romanında qadın xoşbəxtliyinə aparan yolun təmiz və şərəfli, bu yolla gedənin isə ləyaqətli, namuslu, günahsız olduğunu vəsf edən Amerika həyat tərzi, sadə insanların mənəviyyatını pozan, onların saf əxlaqına təcavüz edən burjua cəmiyyəti ciddi tənqid edilmişdir.

**82.** **84(0)** **D 97** **Dünya fantastika antologiyası** / P. Bul [et al.]; tərc.: R. Nağıyev [et al.]; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 464 s.- (Dünya ədəbiyyatı)

Kitaba fantastika janrında yazan dünya yazıçılarının hekayələri, eləcə də A. Belyayevin "Professor Douelin başı" povesti və H. Uellsin "Görünməz adam" romanı daxil edilmişdir.

**83.** **84(4Гре)** **E 47** **Elladanın qəhrəmanları** / bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2004.- 152 s.- (Ədəbiyyat antologiyaları)

Oxuculara təqdim olunan bu kitaba dünya xalqlarına zəngin bir irs qoyub getmiş ellinlərin- qədim yunanların mifologiya qəhrəmanlarından Yazon və Herakl haqqında əsatirlər daxil edilmişdir. Hər iki əsatirdə Elladanın qəhrəmanları obrazı ilə qədim dünyanın idealları əks olunmuşdur.

| | | |
|---|---|---|
| 84. | 84(0)3<br>E 81 | **Esxil.** Seçilmiş əsərləri / Esxil; tərc.: R. Rza, Ə. Q. Məmmədxanlı, Ə. Sadıq; tərt. Ə. Sultanlı; red. T. C. Novruzov; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 200 s.- (Dünya ədəbiyyatı)<br><br>Esxil e.ə. birinci minilliyin ən qüdrətli yazarlarından sayılır. O, yunan faciəsinin əsasını qoymuşdur. Müasir Azərbaycan oxucusuna təqdim olunan bu kitaba Esxilin "Zəncirlənmiş Prometey", "Aqamemnon", "Xoeforlar" və "Evmenidlər" faciələri daxil edilmişdir. |
| 85. | 84(5Aze)<br>Ə 34 | **Əfəndiyev, Rəşid bəy İsmayıl oğlu.** Seçilmiş əsərləri / R. İ. Əfəndiyev; tərt. A. Abdullayev; red. M. Adilov; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 120 s.- (Klassik Azərbaycan ədəbiyyatı)<br><br>Pedaqoq, şair, nasir, dramaturq, publisist, tərcüməçi və etnoqraf kimi tanınan Rəşid bəy Əfəndiyev müxtəlif janrlarda əsərlər yazmışdır. Bu kitabda onun məktəbli uşaqlar və gənclər üçün seçilmiş didaktik şeir, təmsil, hekayə və pyesləri toplanmışdır. Müəllif bir pedaqoq olaraq əsərlərində uşaqlarda elmə, sənətə sevgi, böyüklərə hörmət, təvazökarlıq, qorxmazlıq, vətənpərvərlik hissləri tərbiyə etməyə çalışmış, onları maarifə, elmə dəvət etmişdir. |
| 86. | 84(5Aze)<br>Ə 51 | **Əli.** Qisseyi-Yusif: poema / Əli; tərt.: E. M. Əlibəyzadə, Ə. Hüseynli; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2005.- 216 s.- (Klassik Azərbaycan ədəbiyyatı)<br><br>"Qisseyi-Yusif" (Yusif dastanı) hicri 609, miladi 1212-ci ildə tamamlanmışdır. Şərqdə "Yusif və Züleyxa" dastanı kimi məşhur olan bu mövzunu türk aləmində ilk dəfə Əli adlı şair qələmə almışdır. Yusif əhvalatı çoxdan bəri Şərq xalqları arasında yayılmışdısa da, müəllif onun məzmunundan öz amalı, dünyagörüşü, məqsədi və istəyinə görə faydalanmış, yaşarı bir əsər yaratmışdır. |
| 87. | 84(5Aze)<br>Ə 70 | **Əmani, Məhəmməd.** Əsərləri / M. Əmani; tərt. Ə. Q. Səfərli; red. X. Yusifli; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2005.- 224 s.- (Klassik Azərbaycan ədəbiyyatı)<br><br>Qəzəl, qoşma, gəraylı, bayatı, rübai və başqa poetik formalarda ölməz sənət nümunələri yaradan şair həm də Azərbaycan ədəbiyyatında mənzum hekayə ustası kimi tanınmışdır. Təqdim edilən bu kitab Əmaninin yeganə divanına əsasən tərtib olunmuşdur. |
| 88. | 83.3(5Aze)<br>Ə 72 | **Əmin Abid.** Seçilmiş əsərləri / Əmin Abid; tərt., ön sözün müəl. B. Əhmədov, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 288 s.- (Müasir Azərbaycan ədəbiyyatı)<br><br>Kitaba XX əsr Azərbaycan ədəbiyyatşünaslığının inkişafında xüsusi yeri olan görkəmli folklorşünas, qorqudşünas, nəzəriyyəçi və tənqidçi Əmin Abidin ədəbi, bədii, elmi publisistik məqalələri daxil edilmişdir. |
| 89. | 84(5Туц)<br>F 62 | **Fikrət, Tofiq.** Seçilmiş əsərləri / T. Fikrət; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 176 s.- (Dünya ədəbiyyatı)<br><br>Topluda Tofiq Fikrətin "Rübabi-şikəstə", "Xəluqun dəftəri" və "Şərmin" kitablarından seçilmiş şeirlər nəşr olunmuşdur. |
| 90. | 84(2Рос=Рус)1<br>F 76 | **Fonvizin, Denis İvanoviç.** Seçilmiş əsərləri / D. İ. Fonvizin; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 160 s.- (Dünya ədəbiyyatı) |

XVIII əsr rus ədəbiyyatına yeni məzmun, forma, üslub və janr gətirən, rus milli komediyasının banisi sayılan Denis İvanoviç Fonvizinin məişət və satirik mövzularda qələmə aldığı "Nadan övlad" və "Briqadir" komediyaları onu dövrünün qabaqcıl maarifçi-realist yazıçısı səviyyəsinə qaldırmışdır.

**91.** **84(4Фра)** **F 81**

**Fransız ədəbiyyatı antologiyası**: 3 cilddə / tərt.: H. Qoca, C. Bəydili; ön sözün müəl. C. Bəydili; bur. məsul Ə. Güləliyev
**I cild**: XVII-XIX əsrlər / tərc.: Elçin [et al.].- Bakı: Şərq-Qərb, 2007.- 432 s.- (Dünya ədəbiyyatı)

Bu cildə XVII-XIX əsrlər Fransız ədəbiyyatının görkəmli nümayəndələrindən Jan Batist Molyer, Şarl Perro, Fransua Mari Volter, Abbat Prevo, Deni Didro, Pyer Oqüsten Karon dö Bomarşe, Anri dö Sen-Simon, Klod Joze Ruje dö Lil, Pyer Jan dö Beranje, Anri Mari Stendal, Aleksandr Düma, Viktor Hüqo, Jorj Sand, Jerar dö Nerval və Qustav Floberin əsərləri daxil edilmişdir.

**92.** **84(4Фра)** **F 81**

**Fransız ədəbiyyatı antologiyası**: 3 cilddə / tərt.: H. Qoca, C. Bəydili; bur. məsul Ə. Güləliyev
**II cild**: XIX-XX əsrlər / tərc.: R. Axundov [et al.].- Bakı: Şərq-Qərb, 2007.- 400 s.- (Dünya ədəbiyyatı)

Bu cildə XIX-XX əsrlər Fransız ədəbiyyatının görkəmli nümayəndələrindən Alfred dö Brea, Alfons Dode, Pol Verlen, Anatol Frans, Gi dö Mopassan, Artur Rembo, Jül Renar, Anri Barbüs, Giyom Apolliner, Andre Morua, Pol Elüar, Marsel Eme, Jorj Simenon, Jan Pol Sartr, Ümmül Banu, Anri Truaya, Mari Luiza Ver, Alber Kamü, Pol Tiyyar, Pyer Qamarra, Fransuaza Saqan, Ann Filip və Pol Bernarın əsərləri daxil edilmişdir.

**93.** **84(4Фра)** **F 81**

**Fransız ədəbiyyatı antologiyası**: 3 cilddə / bur. məsul Ə. Güləliyev
**III cild**: XVII-XX əsrlər / tərc.: Ə. M. Ağayev [et al.].- Bakı: Şərq-Qərb, 2007.- 408 s.- (Dünya ədəbiyyatı)

Bu cildə XVII-XX əsrlər Fransız ədəbiyyatının görkəmli nümayəndələrindən Bualo, Onore dö Balzak, Prosper Merime, Şarl Bodler, Emil Zolya, Lui Araqon, Antuan dö Sent-Ekzüperi, Klod Avlin, Semuel Bekket, Pyer Bul, Bernar Klavel, Lui Navir və başqalarının əsərləri daxil edilmişdir.

**94.** **84(4Гем)** **G 38**

**Gete, Yohann Volfqanq.** Faust: faciə / Y. V. Gete; tərc. Ə. Cəmil; red. M. M. Rzaquluzadə.- Təkrar nəşr.- Bakı: Öndər nəşriyyat, 2004.- 560 s.- (Dünya ədəbiyyatı)

Y.V. Getenin haqlı olaraq alman həyatının ensiklopediyası sayılan bu əsəri son dərəcə mürəkkəb həyati-ictimai hadisələrlə yanaşı, dərin fəlsəfi-mistik mifoloji motivləri əhatə edir. Müəllif ideal bir cəmiyyəti öz xəyalının qüdrəti ilə qurmağa çalışmış və ölümsüz "Faust" əsərinin sonunda belə bir cəmiyyət yaratmışdır.

**95.** **84(5Туц)** **G 95**

**Güntəkin, Rəşad Nuri.** Dodaqdan qəlbə / R. N. Güntəkin; tərt. M. Axundova; ön sözün müəl. İ. Ö. Vəliyev; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 280 s.- (Dünya ədəbiyyatı)

"Dodaqdan qəlbə" romanı lirik-realist üslubda yazılsa da, müəllif bu əsərdə dövrünün ictimai problemlərinə də biganə qalmamışdır. Əsərdə öz məhəbbəti naminə əzablara düçar olan Lamiənin məşəqqətli həyatı və məxsus olduğu cəmiyyətin ziddiyyətləri real bədii təsvirlərlə verilmişdir.

**96.** **84(5Туц)** **G 95**

**Güntəkin, Rəşad Nuri.** Çalıquşu / R. N. Güntəkin; tərc. M. M. Rzaquluzadə; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 376 s.- (Dünya ədəbiyyatı)

İlk dəfə 1922-ci ildə nəşr olunan "Çalıquşu" romanında müəllif tərəfindən əsərin qəhrəmanı Fəridənin- Çalıquşunun simasında çətin və məşəqqətli həyat tərzinə baxmayaraq, öz məhəbbətinə sədaqət hissini qoruyub saxlayan əsil türk qızının obrazı bədii ustalıqla qələmə alınmışdır. Romanın ən dəyərli cəhətlərindən biri də müxtəlif təbəqələrə məxsus insanların həyat tərzi ilə bağlı psixoloji məqamların təsviridir.

**97.** **84(4Нор)** **H 26**

**Hamsun, Knut.** Seçilmiş əsərləri / K. Hamsun; tərc., ön sözün müəl. N. Qocabəyli, red. C. Nağıyev.- Bakı: Şərq-Qərb, 2009.- 576 s.; 20,5 sm.- (Nobel mükafatı laureatlarının əsərləri)

Nüfuzlu Norveç nəşrlərindən sayılan "Norveç ədəbiyyatı tarixi" (1974-1975) altıcildliyinin müəlliflərindən birinin fikrincə, Knut Hamsun Norveç ədəbiyyatının "ən istedadlı, ən məşhur və ən mübahisəli" nümayəndəsidir.

**98.** **84(4Чех)** **H 32**

**Haşek, Yaroslav.** Seçilmiş əsərləri / Y. Haşek; tərc.: H. Ə. Hacıyev [et al.]; tərt., ön sözün müəl. E. Mehri; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 320 s.- (Dünya ədəbiyyatı)

Ədəbi fəaliyyətə əsasən yol qeydləri və reportajlarla başlayan məşhur çex yazıçısı Yaroslav Haşek daha sonra satirik novellalar müəllifi kimi tanınmışdır. Müəllifin bu kitaba daxil edilmiş satirik hekayə və felyetonlarında da bürokratizm, meşşan həyat tərzi və əxlaqı ifşa olunur. Haşek yaradıcılığının ən yüksək zirvəsi sayılan "Əsgər Şveykin sərgüzəştləri" satirik romanında isə militarizm əleyhinə etiraz öz dərin ifadəsini tapmışdır.

**99.** **84(7Сое)** **H 42**

**Heminquey, Ernest.** Əcəl zəngi: roman / E. Heminquey; rus dilindən tərc. H. Hacıyev; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 472 s.- (Dünya ədəbiyyatı)

"Əcəl zəngi" romanı E. Heminqueyin dünya şöhrətli əsərlərindəndir. Yaradıcılığından qırmızı xətt kimi keçən ispan mövzusuna sadiq qalan yazıçı bu əsərində 1936-1939-cu illərdə bu ölkədə baş verən vətəndaş müharibəsinin insanların taleyində qoyduğu dərin psixoloji izləri ön plana çəkmiş, müharibə dəhşətlərini özünəməxsus bir şəkildə təsvir etmişdir.

**100.** **84(5Aze)** **H 47**

**Heyran xanım.** Seçilmiş əsərləri / Heyran xanım; tərt.: M. Soltan, Q. M. Məmmədli; red. C. Nağıyeva; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 232 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

XIX yüzilliyin tanınmış Azərbaycan şairəsi Heyran xanım klassik şeirin inkişafında mühüm rol oynamış söz ustalarından biridir. Azərbaycan və fars dillərində lirik şerin bütün növlərində yazıb-yaratmış şairə öz yaradıcılığında dövrünün ictimai hadisələrinə də biganə qalmamışdır. Heyran xanımın qəzəllərində istər sevgi münasibətlərinin, istərsə də həyat-məişət lövhələrinin təsviri öz reallığı ilə seçilir.

**101.** **84(5Aze)** **H 50**

**Həbibi.** Şeirlər / Həbibi; tərt., ön sözün müəl. Ə. Məmmədov, red. A. Paşayeva, bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 88 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Külliyyatı bizə gəlib çatmamış, XIV əsrin görkəmli Azərbaycan şairi Nəsimi ilə

XVI əsrdə yaşamış böyük Füzuli dövrləri arasında yetişən klassik Azərbaycan şeirinin görkəmli nümayəndəsi Həbibinin bu kitabda qəsidələri, qəzəlləri, müsəddəs və qitədən ibarət 47 şeiri toplanmışdır. Bu şeirlər müxtəlif mənbələrdən, ayrı-ayrı cünglərin səhifələrindən köçürülmüşdür. Sadə və rəvan dildə yazılmış bu şeirlərdə xalq poeziyasının böyük təsiri hiss olunur.

**102.** **84(5Aze) H 56** **Həqiqi, Cahanşah.** Şeirlər / C. Həqiqi; tərt.: Ə. Rəhimov, L. Hüseynzadə, Hacı Mail; red. M. Mailoğlu; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 152 s.; 14 sm.- (Klassik Azərbaycan ədəbiyyatı)

Görkəmli söz ustasının bu kitabına dilimizin orta əsr poetik mənzərəsini əks etdirən klassik şeir nümunələri- qəzəl və rübailər daxil edilmişdir.

**103.** **84(5Aze) H 72** **Hidayət.** Seçilmiş əsərləri / Hidayət; ön sözün müəl. N. Q. Cəfərov; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 488 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitaba ədibin çoxcəhətli yaradıcılığının ən səciyyəvi xüsusiyyətlərini özündə əks etdirən seçmə poeziya nümunələri, çağdaş həyatımızdan danışan pyesləri daxil edilmişdir.

**104.** **84(5Туц) H 74** **Hikmət, Nazim.** Seçilmiş əsərləri / N. Hikmət; tərt. A. Babayev; ön sözün müəl. Anar; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 496 s.- (Dünya ədəbiyyatı)

Ustad Nazimin kitabında toplanmış əsərlərində bir ölkə, bir xalq nəfəs alır. Bu həbsxanalı, qürbətli, həsrətli həyat şeirlərində yer üzünün hər bir adamının sevinci, kədəri, arzusu, ümidi var. Nazim şeirinin yaddaşında yalnız bir xalqın yox, bütün insanlığın ağrılı-acılı tarixi yaşayır. Kitaba dramaturqun Azərbaycan teatr səhnəsində dəfələrlə tamaşaya qoyulmuş bir sıra pyesləri də daxil edilmişdir.

**105.** **84(5Туц) H 74** **Hikmət, Nazim.** Seçilmiş əsərləri / N. Hikmət; tərt. A. Babayev; ön sözün müəl. Anar.- Bakı: Şərq-Qərb, 2009.- 520 s.- (Müasir dünya ədəbiyyatı)

Ustad Nazimin kitabında toplanmış əsərlərində bir ölkə, bir xalq nəfəs alır. Bu həbsxanalı, qürbətli, həsrətli həyat şeirlərində yer üzünün hər bir adamının sevinci, kədəri, arzusu, ümidi var. Nazim şeirinin yaddaşında yalnız bir xalqın yox, bütün insanlığın ağrılı-acılı tarixi yaşayır. Kitaba dramaturqun Azərbaycan teatr səhnəsində dəfələrlə tamaşaya qoyulmuş bir sıra pyesləri də daxil edilmişdir.

**106.** **84(0)3 H 85** **Homer**. Odisseya / Homer; tərc. Ə. Ziyatay; ön sözün müəl. Q. Quliyev; red. E. Başkeçid.- Bakı: Şərq-Qərb, 2009.- 376 s.- (Dünya ədəbiyyatı klassikləri)

Homerin (e.ə. VIII əsrdə yaşamışdır) "Odisseya" epik poeması qədim yunanların dünya duyumu və dünyaya münasibətinin bir ifadəsidir. "İliada"da olduğu kimi, "Odisseya" eposunda da Homer hadisələrin bədii təqdimatında xronoloji ardıcıllığa riayət etmir. Lakin bu ardıcıllıq ustalıqla və əsərin bütövlüyü qorunmaq şərti ilə pozulur. "Odisseya" Qədim Yunanıstanın sosial həyatını, mədəniyyətini öyrənmək baxımından müstəsna əhəmiyyətə malikdir.

**107.** **84(0)3 H 85** **Homer.** İliada / Homer; tərc. M. M. Rzaquluzadə; ön sözün müəl. Q. Quliyev; red. M. Qarayev.- Bakı: Şərq-Qərb, 2009.- 512 s.- (Dünya ədəbiyyatı klassikləri)

Əfsanəvi yunan şairi Homerin "İliada" əsərinin məzmununu Troya müharibəsi

təşkil edir. Homer özü Troya müharibəsinin müasiri olmadığı halda, bu əsərdə təsvir və tərənnüm etdiyi hadisələrin iştirakçısı kimi görünür. Əsər dünya poeziyasında qəhrəmanlıq dastanı kimi əbədi ad qazanmışdır.

**108. 84(4Фра) H 96** **Hüqo, Viktor.** Seçilmiş əsərləri: 3 cilddə / V. Hüqo; ön sözün müəl. Ə. Zeynalov; red. İ. Çərkəzoğlu
**I cild**: Səfillər: I-II hissələr / tərc. M. H. Rəfili.- Bakı: Şərq-Qərb, 2009.- 680 s.- (Dünya ədəbiyyatı klassikləri)

Böyük şair, dramaturq, romançı, Fransada romantik hərəkatın başçısı Viktor Hüqo (1802-1885) yaradıcılığa erkən yaşlarından başlayıb. V. Hüqonun şah əsəri III Napoleon hakimiyyəti dövründə mühacirətdə yazdığı "Səfillər" (1861) romanıdır. Bütöv bir dövrün epik mənzərəsini canlandıran bu möhtəşəm roman, müəllifin qeyd etdiyi kimi, "kiçik adamlar haqqında hekayədir".

**109. 84(4Фра) H 96** **Hüqo, Viktor.** Seçilmiş əsərləri: 3 cilddə / V. Hüqo; red. İ. Çərkəzoğlu
**II cild**: Səfillər: III-IV hissələr / tərc. B. A. Musayev.- Bakı: Şərq-Qərb, 2009.- 688 s.- (Dünya ədəbiyyatı klassikləri)

Böyük şair, dramaturq, romançı, Fransada romantik hərəkatın başçısı Viktor Hüqo (1802-1885) yaradıcılığa erkən yaşlarından başlayıb. V. Hüqonun şah əsəri III Napoleon hakimiyyəti dövründə mühacirətdə yazdığı "Səfillər" (1861) romanıdır. Bütöv bir dövrün epik mənzərəsini canlandıran bu möhtəşəm roman, müəllifin qeyd etdiyi kimi, "kiçik adamlar haqqında hekayədir".

**110. 84(4Фра) H 96** **Hüqo, Viktor.** Seçilmiş əsərləri: 3 cilddə / V. Hüqo; red. İ. Çərkəzoğlu
**III cild**: Səfillər. V hissə: Paris Notr-Dam kilsəsi / tərc.: B. A. Musayev, M. H. Rəfili.- Bakı: Şərq-Qərb, 2010.- 816 s.- (Dünya ədəbiyyatı klassikləri)

Viktor Hüqo "Paris Notr-Dam kilsəsi romanını qələmə alanda cəmi 27 yaşı var idi və "Səfillər"in yaranmasına hələ çox qalırdı. Bir çox tənqidçilərin fikrincə, yazıçı "Paris Notr-Dam kilsəsi" romanını qələmə almasaydı, "Səfillər" kimi mükəmməl epik əsər meydana çıxa bilməzdi. "Mən öz kitablarımda,- V. Hüqo deyirdi,- kiçik və bədbəxt adamları müdafiə etmişəm, ... hamının insan hüquqlarına malik olduğunu göstərmişəm...".

**111. 84(4Фра) H 96** **Hüqo, Viktor.** Paris Notr-Dam kilsəsi: roman / V. Hüqo; rus dilindən tərc. M. H. Rəfili; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 488 s.- (Dünya ədəbiyyatı)

Dünya ədəbiyyatının ən məşhur əsərlərindən olan "Paris Notr-Dam kilsəsi" romanında insanın azadfikirliyi və mənəvi müstəqilliyi konsepsiyası Fransadakı cari hadisələrlə əlaqələndirilir. Orta əsrlərin sonlarından bəhs edən romanında Viktor Hüqo gələcəyin keçmişin varisi olduğunu göstərməyə çalışır. Yazıçı təsvir etdiyi dövrün əlamətlərini romanın əsas qəhrəmanlarının- Esmeraldanın, Kvazimodonun və Klod Frollonun xarakterlərində və talelərində təcəssüm etdirmişdir.

**112. 84(5Aze) H 98** **Hüseynzadə, Əlibəy.** Seçilmiş əsərləri / Ə. Hüseynzadə; translit., tərt. O. Bayramlı, elmi red. A. Turan, bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 480 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Böyük fikir adamı, publisist, filosof, şair, həkim, rəssam... Əli bəy Hüseynzadənin "Seçilmiş əsərləri"nə müxtəlif illərdə yazdığı bədii-publisistik irsindən nümunələr daxil edilmişdir. XX yüzildə Türk dünyası üçün misilsiz

əhəmiyyət kəsb edən türkləşmək, islamlaşmaq, avropalaşmaq təliminin yaradıcısı olmuş bu dahi şəxsiyyətin əsərləri istər elmi-ədəbi, istərsə də milli məfkurə tariximizin öyrənilməsi baxımından əsas qaynaqlardan hesab olunmaqdadır.

**113.** **84(5Aze) X 49** **Xəlil, Zeynal.** Seçllmiş əsərləri / Z. Xəlil; tərt. Z. Xəlilova; ön sözün müəl. T. Həmid; bur. məsul Ə. Güləliyev.- Bakı: Öndər nəşriyyat, 2004.- 264 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitaba Zeynal Xəlilin yaradıcılığının müxtəlif dövrlərini əks etdirən şeirlər, poema və pyes daxil edilmişdir. İnsana əbədi sevgi və məhəbbət bu əsərlərin başlıca qayəsini təşkil edir.

**114.** **84(5Aze) X 51** **Xəndan, Rəfiq Zəka Cəfər oğlu.** Seçilmiş əsərləri / R. Z. C. Xəndan; tərt. A. Xəndan; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2004.- 360 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Rəfiq Zəka Xəndan nəğməkar şairdi. Şair həm əruzda, həm də hecada eyni məharətlə qələm çalmışdır. Müəllifin seçilmiş əsərlərindən ibarət olan bu kitabına daxil edilən rəvan və ahəngdar üslublu poetik nümunələrin hər birində şairin öz səsi, öz nəfəsi, öz nəğməsi var.

**115.** **84(5Ирн) X 53** **Xəyyam, Ömər.** Rübailər / Ö. Xəyyam; tərc. M. M. Seyidzadə; ön sözün müəl. M. S. Sultanov; red. Ə. Q. Hacızadə; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 104 s.- (Dünya ədəbiyyatı)

Dövrünün görkəmli riyaziyyatçısı və astronomlarından biri olan Ömər Xəyyam Şərq ədəbiyyatı tarixində filosof şair kimi də tanınır. Kitabda şairin dünya şöhrəti qazanmış rübailəri toplanmışdır. Əsrlər boyu dünya xalqlarının dillərində sevilə-sevilə oxunan bu rübailərin ideya məzmununu şəxsiyyət azadlığı, ədalətsizliyə qarşı mübarizə, həqiqətə, insanı zülm və əsarətdən qurtarmağa, təbiət gözəlliklərindən və dünya nemətlərindən zövq almağa çağırış təşkil edir.

**116.** **84(5Aze) X 54** **Xəzri, Nəbi.** Seçilmiş əsərləri: 2 cilddə / N. Xəzri; bur. məsul Ə. Güləliyev
**I cild**.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 248 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Müasir Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən olan Nəbi Xəzrinin bu kitabına xalq şairinin müxtəlif dövrlərdə qələmə aldığı şeirləri toplanmışdır. Lirik qəhrəmanın fəal həyat mövqeyi, hadisə və faktların sənətkarlıqla mənalandırılması, məzmun təzəliyi və forma mükəmməlliyinin təbii təqdimi kitabdakı şeirlərdə dolğun bədii əksini tapmışdır.

**117.** **84(5Aze) X 54** **Xəzri, Nəbi.** Seçilmiş əsərləri: 2 cilddə / N. Xəzri; bur. məsul Ə. Güləliyev
**II cild**.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 264 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi Nəbi Xəzrinin bu kitabına şairin ayrı-ayrı vaxtlarda qələmə aldığı şeir və poemaları daxil edilmişdir. Mövzu üfüqlərinin genişliyi və rəngarəngliyi ilə səciyyələnən bu ədəbi nümunələr tanınmış şairin yaradıcılığı haqqında dolğun təsəvvür yaradır.

**118.** **84(5Aze) İ-18** **İbrahimbəyov, Rüstəm Məmmədibrahim oğlu.** Seçilmiş əsərləri: 2 cilddə / R. M. İbrahimbəyov; ön sözün müəl. Anar; bur. məsul U. Rəhimoğlu
**I cild**.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 312 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Məşhur Azərbaycan yazıçısı Rüstəm İbrahimbəyovun əsərləri dünyanın bir sıra dillərinə tərcümə olunmuş və özünə geniş oxucu kütləsi qazanmışdır. Hansı mövzuya müraciət etməsinə baxmayaraq R. İbrahimbəyov həmin əsəri müasir və real bir rakursdan təqdim etməyi ustalıqla bacaran yazıçıdır. Yazıçının oxuculara təqdim olunan iki cildliyinin birinci cildinə daxil edilmiş povestlər bu baxımdan olduqca qiymətli əsərlərdir.

**119. 84(5Aze) İ-18** **İbrahimbəyov, Rüstəm Məmmədibrahim oğlu.** Seçilmiş əsərləri: 2 cilddə / R. M. İbrahimbəyov; bur. məsul U. Rəhimoğlu
**II cild**.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 288 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Görkəmli yazıçı Rüstəm İbrahimbəyovun seçilmiş əsərlərinin ikinci cildinə daxil edilmiş povest və hekayələrin mayasında müasirlərimizin keçdiyi həyat tərzinin reallıqları əks olunmuşdur. Bu əsərlər doğma yurdumuzun sərhədlərindən çox-çox uzaqlarda da məşhurdur.

**120. 84(4Hop) İ-18** **İbsen, Henrik.** Seçilmiş əsərləri / H. İbsen; tərc. A. Əliyev; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 344 s.- (Dünya ədəbiyyatı)

Klassik dünya ədəbiyyatı və dramaturgiyasının görkəmli nümayəndəsi, böyük Norveç dramaturqu Henrik İbsenin XX əsr Avropasının mənəvi aləmini əks etdirən əsərləri cəmiyyətdə mövcud olan romantik duyğuların sərt reallıqla üzləşməsi prosesinin vizual təcəssümüdür və zəmanəmizin əxlaq gerçəklikləri ilə səsləşir. Bu kitaba dramaturqun "Kuklalar evi", "Vahimə", "Vəhşi ördək" və "Hedda Qabler" dram əsərləri daxil edilmişdir.

**121. 84(5Aze) İ-33** **İldırım, Almas.** Seçilmiş əsərləri / A. İldırım; tərt., ön sözün müəl. M. A. Teymurov, red. N. M. Cabbarlı, bur. məsul Ə. Güləliyev.- Bakı: Öndər nəşriyyat, 2004.- 160 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitaba müəllifin milli istiqlal, azadlıq, müstəqillik uğrunda mübarizəyə həsr olunmuş şeirləri toplanmışdır. Şeirlərdə Vətən həsrəti, tarixi keçmişimizlə bağlı poetik düşüncələr öz parlaq əksini tapmışdır.

**122. 84(5Aze) İ-38** **İlkin, Qılman.** Seçilmiş əsərləri: 2 cilddə / Q. İlkin; tərt. A. Musayev; ön sözün müəl. Ş. Salmanov; bur. məsul U. Rəhimoğlu
**I cild**.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 232 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Görkəmli yazıçımız Qılman İlkinin bu kitabına müəllifin hekayələri və povestləri daxil edilmişdir. Hekayələrdə müasirlərimizin gündəlik qayğılarından, onların həyatında baş verən hadisələrdən, vətənin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq göstərmiş oğul və qızlarımızın döyüş yolundan söhbət açılır. "Dəniz həmişə göy olmur" povestinin mövzusu Böyük Vətən müharibəsi illərində arxa cəbhədə baş verən olaylardan, "Dağlı məhəlləsi"nin mövzusu isə müasir həyatımızdan götürülmüşdür.

**123. 84(5Aze) İ-38** **İlkin, Qılman.** Seçilmiş əsərləri: 2 cilddə / Q. İlkin; bur. məsul U. Rəhimoğlu
**II cild**: Qalada üsyan: roman.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 408 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Tanınmış Azərbaycan yazıçısı Qılman İlkinin "Qalada üsyan" romanında 1907-ci ildə çar mütləqiyyətinin yüksək hərbi məmurlarının özbaşınalıqlarından, ifrat inzibatçılığından cana gələrək qiyam qaldırdıqlarına görə Azərbaycanın Zaqatala

rayonuna sürgün edilmiş rus matroslarının yerləşdirildikləri qalada qaldırdıqları üsyandan bəhs edilir.

124. 84(4Вел) İ-51 **İngilis ədəbiyyatı antologiyası** / tərc.: A. Mahmudov [et al.]; tərt., ön sözün müəl. Z. A. Ağayev; red. E. Muradov.- Bakı: Şərq-Qərb, 2009.- 704 s.- (Dünya ədəbiyyatı klassikləri)

Bu kitaba XVI-XIX əsrlər ingilis ədəbiyyatının görkəmli nümayəndələrindən Uilyam Şekspir, Daniel Defo, Conatan Svift, Robert Börns, Valter Skott, Corc Qordon Bayron, Persi Bişi Şelli, Çarlz Dikkens, Luis Keroll, Brem Stoker, Robert Luis Stivenson və başqalarının əsərləri daxil edilmişdir.

125. 84(4Вел) İ-51 **İngilis ədəbiyyatı antologiyası**: 2 cilddə / tərt., ön sözün müəl. Z. A. Ağayev, bur. məsul Ə. Güləliyev
**I cild**: XVI-XIX əsrlər / tərc.: A. Mahmudov [et al.].- Bakı: Şərq-Qərb, 2007.- 336 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba XVI-XIX əsrlər ingilis ədəbiyyatının görkəmli nümayəndələrindən U. Şekspir, D. Defo, C. Svift, R. Berns, V. Skott, C.Q. Bayron, P.B. Şelli, Ç. Dikkens, L. Keroll, B. Stoker, R. L. Stivenson və başqalarının əsərləri daxil edilmişdir.

126. 84(4Вел) İ-51 **İngilis ədəbiyyatı antologiyası**: 2 cilddə / tərt. Z. A. Ağayev; bur. məsul Ə. Güləliyev
**II cild**: XIX-XX əsrlər / tərc.: E. Şıxlı [et al.].- Bakı: Şərq-Qərb, 2007.- 320 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba XIX-XX əsrlər İngilis ədəbiyyatının görkəmli nümayəndələrindən O. Uayld, B. Şou, A.K. Doyl, R. Kiplinq, H. Uells, S. Moem, A. Kristi, C. Oldric, C. Sommerfild, H. Pinter və başqalarının əsərləri daxil edilmişdir.

127. 84(4Исп) İ-83 **İspan ədəbiyyatı antologiyası** / tərc.: S. Hüseynova [et al.]; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 384 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba XVI-XX əsrlər ispan ədəbiyyatının görkəmli nümayəndələrindən Migel de Servantes Saavedra, Lope de Veqa, Xuan Valera, Pedro Antonio de Alarkon, Emiliya Pardo Bazan, Leopoldo Alas (Klarin), Armando Palasio Baldes, Xoakin Disenta İ'Benedikto, Ramon Peres de Ayala, Federiko Qarsia Lorka, Sesar Munyos Arkonada, Kamilo Xose Sela, Migel Delibes, Anna Mariya Matute, Xuan Qoytisolo, Xuan Marse və başqalarının əsərləri daxil edilmişdir.

128. 84(4Авс) K 15 **Kafka, Frans.** Seçilmiş əsərləri / F. Kafka; ön sözün müəl. M. Qarayev; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 360 s.- (Dünya ədəbiyyatı)

Tanınmış Avstriya yazıçısı Frans Kafkanın "Müşahidələr", "Çevrilmə", "Ac-yalavaclar", "Akademiya üçün hesabat" novella və hekayələrinin, "Amerika", "Mühakimə", "Qəsr" romanlarının qəhrəmanları ağlasığmaz, dəhşətli, fantastik vəziyyətlərdə təsvir olunur. Bu əsərlərdə "kiçik insanın" faciəsi, ümüdsizliyi ilə yanaşı, cəmiyyətdəki qəddarlıq və dərin əxlaq böhranı da öz əksini tapmışdır.

129. 84(2Рос=Рус)1 K 86 **Korolenko, Vladimir Qalaktionoviç.** Seçilmiş əsərləri / V. Q. Korolenko; tərc.: Ə. Əylisli [et al.]; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 304 s.- (Dünya ədəbiyyatı)

XIX əsrin 60-80-ci illərinin rus ictimai-siyasi fikir tarixində mütərəqqi yer tutan V.Q. Korolenkonun hekayə və povestlərinin leytmotivini rus məişətinin təsviri, dövrünün ictimai-siyasi durumuna münasibəti, zorakılıq və ədalətsiz çar məhkəmə üsul-idarəsinin tənqid olunması, insan hüquqlarının qorunması təşkil edir. Vladimir Korolenko "solğunbənizli yoxsul kəndlilər"in məşəqqətli həyatını, həbsxana jandarmlarının kobudluğunu və harınlığını, inqilabçı qızın mübarizliyini əsərlərində sentimental ruhda, özünə məxsus ustalıqla təsvir etmişdir.

**130.** **84(2Рос=Рус)1 K 95** **Krılov, İvan Andreyeviç.** Təmsillər / İ. A. Krılov; tərc.: A. Şaiq [et al.]; tərt. T. İbrahimova; ön sözün müəl. M. Arif; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 144 s.- (Dünya ədəbiyyatı)

Böyük rus təmsilçisi İ.A. Krılovun bu kitabda toplanan təmsillərinin əsas xüsusiyyətləri onların tənqid və nəsihətdən ibarət olmasıdır. Bu təmsillərdə gərgin əməyin, çalışqanlığın, düzlüyün, yaxşı əməllərin, mərdliyin həyatda ən vacib olduğu dönə-dönə aşılanır.

**131.** **84(7Сое) K 96** **Kuper, Ceyms Fenimor.** Ləpirçi: roman / C. F. Kuper; tərc. Ə. Zeynalov; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 384 s.- (Dünya ədəbiyyatı)

Dünya şöhrətli yazıçılardan biri, Amerika romantizminin ilk görkəmli nümayəndəsi sayılan Ceyms Fenimor Kuperin "Ləpirçi" romanının bəşər ədəbiyyatı xəzinəsində özünəməxsus yeri vardır. Əsərdəki hadisələr XVIII əsrin 50-ci illərində baş verir. Romanın mövzusu fransızlar və ingilislər arasında onillərlə davam edən qanlı müharibədən götürülmüşdür.

**132.** **84(2Рос=Рус)1 K 96** **Kuprin, Aleksandr İvanoviç.** Seçilmiş əsərləri / A. İ. Kuprin; tərc. İ. Yaqubov; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 312 s.- (Dünya ədəbiyyatı)

Rus klassik nəsrindən bəhs edəndə sözsüz ki, A.İ. Kuprinin də adı xüsusi hörmətlə çəkilir. Sadə təbiət hadisələrinin mürəkkəb insan psixologiyasıyla vəhdəti onun əsərlərində oxucuya daha qabarıq çatdırılır, həyatın zəngin çalarları aydın və parlaq boyalarla əks olunur. Bu kitaba yazıçının "Təkbətək" və "Olesya" povestləri daxil edilmişdir.

**133.** **84(5Aze) Q 24** **Qaracaoğlan.** Şeirlər / Qaracaoğlan; tərt., ön sözün müəl.: İ. Öməroğlu, Q. M. Namazov, bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 256 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Həyatı və yaradıcılığı əfsanələrə, dastanlara qarışmış qüdrətli sənətkar Qaracaoğlan türkman-oğuz dilində yaratmış görkəmli söz ustasıdır. Orijinal bədii təyinlər silsiləsi, təkrarların yaratdığı ritm, gözlənilməz müqayisələrə klassik ədəbiyyatın həsəd aparacağı keçidlər, dahiyanə məcazlar... səsindən cümləsinəcən, qafiyəsindən vəzninəcən oğuzcanın təqdim olunan kitabda toplanmış bu sehirli poeziyasına daxilən xasdır.

**134.** **84(2Рос=Рус)1 Q 24** **Qarin-Mixaylovski, Nikolay.** Seçilmiş əsərləri / N. Qarin-Mixaylovski; rus dilindən tərc. Ə. Şükürlü; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 192 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba rus klassik ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı Nikolay Qarin-Mixaylovskinin "Dimin sarayı", "Adoçka", "Dahi", "Canavar" hekayələri və

"Tyomanın uşaqlığı" povesti daxil edilmişdir. Yazıçı bu əsərlərdə, əsasən uşaqların, gənc nəslin ailə xronikasından və həyatından bəhs edərək, onların şəxsiyyətinin müdafiəçisi kimi çıxış etmişdir.

**135. 84(5Aze) Q 25** **Qasımzadə, Qasım Xansuvar oğlu.** Seçilmiş əsərləri / Q. X. Qasımzadə; tərt. N. Qasımoğlu; ön sözün müəl. Y. V. Qarayev; bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2005.- 280 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Qasım Qasımzadə o şairlər sırasına mənsubdur ki, poeziyası, taleyi və şəxsiyyəti vəhdət təşkil edir. Onun zövq oxşayan şeirlərinin başlıca xüsusiyyəti təbiilik və xəlqilikdir. Şairin bu kitabında gözəlliyə bir səyahət ruhu vardır. Buradakı poetik nümunələrin əsasında tarixlə, təbiətlə şair, yaddaşla vətəndaş arasında ünsiyyətin ibrətli, mənalı məqamları dayanır.

**136. 84(5Aze) Q 46** **Qəmküsar, Əliqulu.** Seçilmiş əsərləri / Ə. Qəmküsar; tərt.-red. İ. M. Ağayev, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 168 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Əliqulu Qəmküsar Azərbaycan ədəbiyyatı tarixinə mollanəsrəddinçi şair kimi daxil olmuşdur. Bu kitaba onun satirik şeirləri, dəyənəkləri və felyetonları daxil edilmişdir.

**137. 84(5Aze) Q 47** **Qənizadə, Sultanməcid Hacı Murtuzəli oğlu.** Seçilmiş əsərləri / S. M. Qənizadə; tərt., ön sözün müəl. A. F. Zamanov, red. H. M. Araslı, bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2006.- 200 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitaba müəllifin "Məktubati-Şeyda bəy Şirvani" romanı, "Allah xofu" povesti, digər bədii əsərləri və xatirələri daxil edilmişdir.

**138. 84(2Poc=Pyc)1 Q 65** **Qoqol, Nikolay Vasilyeviç.** Seçilmiş əsərləri / N. V. Qoqol; tərc.: S. Rəhman [et al.]; ön sözün müəl. G. Manafova; red. A. Dadaşov.- Bakı: Şərq-Qərb, 2009.- 336 s.- (Dünya ədəbiyyatı klassikləri)

XIX əsr rus realist ədəbiyyatının yaradıcılarından biri olan N.V. Qoqolun bu kitabında onun yaradıcılığında romantik vüsəti və realizmin dərinliyi ilə seçilən bir sıra povestləri- "Taras Bulba", "Viy", "İvan İvanoviçin İvan Nikiforoviçlə dalaşması haqqında povest", "Şinel" və bürokratik polis üsul-idarəsinə qarşı yazılmış məşhur "Müfəttiş" komediyası daxil edilmişdir.

**139. 84(2Poc=Pyc)1 Q 65** **Qoqol, Nikolay Vasilyeviç.** Seçilmiş əsərləri / N. V. Qoqol; tərc.: S. Rəhman [et al.]; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 320 s.- (Dünya ədəbiyyatı)

XIX əsr rus realist ədəbiyyatının yaradıcılarından biri olan N.V. Qoqolun bu kitabında onun yaradıcılığında romantik vüsəti və realizmin dərinliyi ilə seçilən bir sıra povestləri- "Taras Bulba", "Viy", "İvan İvanoviçin İvan Nikiforoviçlə dalaşması haqqında povest", "Şinel" və bürokratik polis üsul-idarəsinə qarşı yazılmış məşhur "Müfəttiş" komediyası daxil edilmişdir.

**140. 84(2Poc=Pyc)1 Q 68** **Qonçarov, İvan Aleksandroviç.** Adi əhvalat: roman / İ. A. Qonçarov; rus dilindən tərc. X. Əzizbəyov; ön sözün müəl. M. Arif; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 344 s.- (Dünya ədəbiyyatı)

Görkəmli rus yazıçısı İ.A. Qonçarovun "Adi əhvalat" romanı rus ədəbiyyatında

yaranan ilk realist romanlardandır. Müəllif bu əsərində öz dövrünün mühüm ictimai xəstəlikləri, durğunluqla mübarizənin zəruriliyini ön plana çəkmişdir.

**141.** **84(Рос=Рус)6 Q 70** **Qorki, Maksim.** Seçilmiş əsərləri: 2 clddə / M. Qorki; bur. məsul U. Rəhimoğlu **I cild**: Hekayələr / tərc.: M. Arif, H. Şərif.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 264 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba A.M. Qorkinin (Maksim Qorkinin) bir sıra məşhur hekayələri daxil edilmişdir. Əsərlərində insan mənəviyyatını puç edən meşşanlığın cəmiyyət üçün nə dərəcədə zərərli olduğunu böyük ustalıqla əks etdirən yazıçı bu hekayələrində də "mülkədar və kəndlinin... səfilin və tələbənin" və bir çox başqa sosial tiplərin maraqlı obrazını yaratmışdır.

**142.** **84(Рос=Рус)6 Q 70** **Qorki, Maksim.** Seçilmiş əsərləri: 2 cilddə / M. Qorki; bur. məsul U. Rəhimoğlu **II cild**: Ana: roman / tərc. Ə. Şərif.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 360 s.- (Dünya ədəbiyyatı)

Bu kitaba rus ədəbiyyatının görkəmli nümayəndələrindən biri sayılan A. M. Qorkinin (Maksim Qorkinin) məşhur "Ana" romanı daxil edilmişdir. Dünyanın bir çox dillərinə tərcümə olunmuş bu əsər, sinfi mübarizə tarixinə misilsiz xidmət göstərmiş, yeni pafos, yeni ruh, yeni nəfəs gətirmişdir.

**143.** **84(5Aze) Q 70** **Qorqud ədəbiyyatı**: bədii əsərlər / tərt.-red. T. İ. Hacıyev, bur. məsul Ə. Güləliyev.- Bakı: Öndər nəşriyyat, 2004.- 368 s.- (Azərbaycan xalq ədəbiyyatı)

Kitabda Dədə Qorqud motivləri əsasında müxtəlif janrlarda yazılmış bədii əsərlərdən nümunələr toplanmışdır.

**144.** **84(2Рос=Рус)1 Q 76** **Qriboyedov, Aleksandr Sergeyeviç.** Ağıldan bəla: pyes / A. S. Qriboyedov; rus dilindən tərc. Ə. Ziyatay; bur. məsul U. Rəhimoğlu.- Təkrar nəşr.- Bakı: Avrasiya Press, 2006.- 160 s.- (Dünya ədəbiyyatı)

Görkəmli rus yazıçısı və diplomatı A.S. Qriboyedovun məşhur "Ağıldan bəla" mənzum pyesində öz dövrünün kübar həyat tərzi, dvoryan-saray zadəganlığının mühafizəkarlığı ustalıqla qələmə alınmışdır.

**145.** **84(5Aze) Q 89** **Qurbani.** Əsərləri / Qurbani; tərt., ön sözün müəl. Q. Ş. Kazımov, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 232 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Kitaba görkəmli aşığın əvvəllər çap olunmuş əsərləri ilə yanaşı, müxtəlif mənbələrdən- dastan variantlarından, cünglərdən, ayrı-ayrı aşıqlardan toplanmış yeni qoşmaları, gəraylıları, təcnisləri, deyişmələri, qıfılbəndləri, divaniləri daxil edilmişdir.

**146.** **84(5Aze) Q 92** **Qutqaşınlı, Hacı İsmayıl bəy.** Əsərləri / İ. Qutqaşınlı; tərt., elmi red. Ə. Tahirzadə, ön sözün müəl. C. Qəhrəmanov.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2005.- 224 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

XIX yüzil Azərbaycan realist-maarifçi ədəbiyyatının yaradıcılarından biri, rus ordusunun generalı, Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz bölməsinin və Qafqaz Kənd Təsərrüfatı Cəmiyyətinin həqiqi üzvü Hacı İsmayıl bəy Qutqaşınlının (1809-1861) ədəbi irsindən bizə az şey gəlib çatmışdır. Azərbaycan oxucusu onu əsasən "Rəşid bəy və Səadət xanım" hekayəsinə və "Şərəfnamə" yol qeydlərinə görə tanıyır.

147. **84(4Шве)** **L 15** **Lagerkvist, Per Fabian.** Seçilmiş əsərləri / P. F. Lagerkvist; tərc., ön sözün müəl. İ. Əlfioğlu, red. M. Qarayev.- Bakı: Şərq-Qərb, 2009.- 800 s.- (Nobel mükafatı laureatlarının əsərləri)

148. **84(7Сое)** **L 83** **London, Cek.** Martin İden: roman / C. London; tərc., ön sözün müəl. İ. İbrahimov, red. M. Qarayev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2009.- 400 s.- (Dünya ədəbiyyatı klassikləri)

"Martin İden" görkəmli Amerika yazıçısı Cek Londonun (1876-1916) ən məşhur əsərlərindən biridir. Romanda sənət adamının faciəli həyatından söhbət açılır.

149. **84(5Aze)** **M 26** **Marapalı, Əvhədi.** Cami-Cəm: poema / Ə. Marağalı; fars dilindən tərc.: Q. Beqdeli, X. Yusifli, ön sözün müəl., elmi red. X. Yusifli, bur. məsul Ə. Güləliyev.- Bakı: Lider nəşriyyat, 2004.- 288 c.- (Klassik Azərbaycan ədəbiyyatı)

Əsər orta əsrlər Müsəlman Şərqinin mükəmməl dini-fəlsəfi sistemi olan təsəvvüfün nəzəri görüşlərini və mənəvi-əxlaqi dəyərlərini özündə əks etdirir.

150. **84(5Ирн)** **M 26** **Marağayi, Zeynalabdin.** İbrahim bəyin səyahətnaməsi və ya təəssübkeşliyin bəlası: roman / Z. Marağayi; fars dilindən tərc. H. Məmmədzadə; red. H. Xoşginabi; bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2006.- 456 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

"İbrahim bəyin səyahətnaməsi" romanı İranda, o cümlədən Güney Azərbaycanda baş vermiş 1905-1911-ci illər inqilabının zehni zemininin hazırlanmasında çox qiymətli bədii salnamədir. İranda hökm sürən mütləqiyyət üsuli-idarəsinə və cəhalətə qarşı yönəldilmiş bu qiymətli əsər yetişməkdə olan gənc nəslin inqilabi dünyagörüşünün formalaşmasında, onların istibdada, zora, anarxiyaya qarşı mübarizəsində böyük rol oynamışdır.

151. **84(4Фра)** **M 38** **Merime, Prosper.** Seçilmiş əsərləri / P. Merime; ön sözün müəl. Ə. M. Ağayev; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 176 s.- (Dünya ədəbiyyatı)

Fransız ədəbiyyatında tənqidi realizmin görkəmli nümayəndəsi olan Prosper Merime öz yüksək bədiiliyi ilə fərqlənən hekayə və povest ustasıdır. Onun "Mateo Falkone", "İstehkamın alınması" novellalarında, "Etrusk vazası", "Məhəbbət ilahəsi", "Kolomba", "Tamanqo", "Karmen", "İllyalı Venera" və başqa povestlərində Fransanın ictimai-siyasi həyatına tənqidi münasibət, cəmiyyətin riyakarlığı, pulun hakimiyyəti, burjua əxlaqı ilə bəsit, lakin saf mənəvi keyfiyyətlərin toqquşması təsvir olunur.

152. **84(5Aze)** **M 48** **Məhəmməd.** Şəhriyar / Məhəmməd; tərt., ön sözün müəl. Ə. Q. Səfərli, bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 216 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

"Şəhriyar" əsəri XVIII əsr Azərbaycan ədəbiyyatının ən qiymətli nümunələrindəndir. Mövzunu folklordan alan ədib onu özünəməxsus bir şəkildə işləmiş, ideya-bədii keyfiyyətlərinə görə orijinal və kamil bir əsər yaratmışdır. Bu əsərdə sevgi, mənəvi ucalıq, insansevərlik, etibar, dostluq, sədaqət kimi hisslər təbliğ edilir, bədxahlıq, zülm, şər, ictimai ədalətsizliklər pislənilir.

| | | |
|---|---|---|
| 153. | 84(2Рос=Рус)6<br>M 60 | **Mixalkov, Sergey Vladimiroviç.** Seçilmiş əsərləri / S. V. Mixalkov; tərc. Z. Sarıtorpaq; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.- 152 s.- (Dünya ədəbiyyatı)<br><br>Kitaba uşaqlar üçün maraqlı əsərləri ilə tanınan, rus yazıçısı Sergey Mixalkovun nəçib mənəvi-əxlaqi keyfiyyətlər aşılanan, gənc nəslin tərbiyəsindən bəhs edən hekayələri, təmsilləri, mənzum nağılları və "Sombrero" adlı pyesi daxil edilmişdir. |
| 154. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**I cild**: 1-38-ci gecələr / rus dilindən tərc. İ. Yaqubov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 344 s.- (Dünya ədəbiyyatı)<br><br>"Min bir gecə" nağılları şifahi xalq ədəbiyyatının ən monumental abidələrindəndir. Sözlərdən toxunan bu abidə çox qədimdə yaranmışdır; onun rəngarəng ipək sapları dünyaya uzanaraq öz əsrarəngiz söz xalısını bütün yer kürəsinin üzərinə sərmişdir. |
| 155. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**II cild**: 39-145-ci gecələr / rus dilindən tərc. İ. İbrahimov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 352 s.- (Dünya ədəbiyyatı) |
| 156. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**III cild**: 146-270-ci gecələr / rus dilindən tərc. C. Məmmədov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 336 s.- (Dünya ədəbiyyatı) |
| 157. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**IV cild**: 271-434-cü gecələr / rus dilindən tərc. N. Nağıyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 408 s.- (Dünya ədəbiyyatı) |
| 158. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**V cild**: 435-606-cı gecələr / rus dilindən tərc. M. Əfəndiyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 392 s.- (Dünya ədəbiyyatı) |
| 159. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**VI cild**: 607-756-cı gecələr / rus dilindən tərc. M. Əfəndiyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 392 s.- (Dünya ədəbiyyatı) |
| 160. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**VII cild**: 756-894-cü gecələr / rus dilindən tərc. M. İsgəndərzadə.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 384 s.- (Dünya ədəbiyyatı) |
| 161. | 84(5)<br>M 64 | **Min bir gecə**: 8 cilddə / red. M. Qasımlı; bur. məsul Ə. Güləliyev<br>**VIII cild**: 895-1001-ci gecələr / rus dilindən tərc. Ə. Abbasov.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2007.- 352 s.- (Dünya ədəbiyyatı) |
| 162. | 84(4Пол)<br>M 69 | **Mitskeviç, Adam.** Seçilmiş əsərləri / A. Mitskeviç; tərc.: S. X. Rüstəmxanlı, G. H. Abdullabəyova; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 240 s.- (Dünya ədəbiyyatı)<br><br>Məşhur polyak nəzm ustadı Adam Mitskeviçin şair taleyi- ilk növbədə onun böyük və romantik dünyası və öz torpağına, xalqına, ana dilinə qeyri-adi dərəcədə yüksək sevgisi ilə bağlı şəkildə duyulur. Slavyandilli ədəbiyyatların öndəri sayılan Adam Mitskeviçin qəlbində ali duyğu olaraq qalmış Vətən məhəbbəti, romantik ruhu, gözəlliyə, ilkin saflığa dərin ehtiramı, şeiri |

"zəmanənin aynası" hesab etməsi, bu topluya daxil edilən "Krım sonetləri"ndə, sevgi şeirlərində, balladalar və romanslarında, "Pan Tadeuş" realist poemasında daha dolğun, canlı parlaq boyalarla əks olunur.

**163.** **84(5Aze)** **M 73** **Molla Cumə.** Əsərləri / Molla Cumə; tərt., ön sözün müəl. P. Ş. Əfəndiyev, elmi red. H. Ə. İsmayılov, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 648 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Azərbaycan aşıq sənətinin inkişafında həm ifaçılıq qabiliyyətinə, həm də yaradıcılıq keyfiyyətinə görə misilsiz rol oynamış bənzərsiz söz ustadı Molla Cümə poetik istedad vergisinə malik sənətkar olmuşdur. Onun irsi zəngin və çoxşaxəlidir. Eyni zamanda o, şifahi xalq şeirinin müxtəlif çeşidlərində şeirlər yaratmışdır. Onun gəraylı, qoşma, təcnis, divani, müxəmməs və başqa şeir formaları üzərində apardığı yeniləşmələr klassik Şərq poetikasına məxsus qaydaların aşıq şeiri janrlarına tətbiq edilməsi nəticəsində olmuşdur.

**164.** **84(4Фра)** **M 74** **Mopassan, Gi de.** Hekayələr və novellalar / G. Mopassan; tərc.: İ. Şıxlı, H. Qocayev; bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 176 s.- (Dünya ədəbiyyatı)

Gi de Mopassan XIX əsrin məşhur hekayə ustalarındandır. Onun hekayə və novellalarında cəmiyyətin eybəcərlikləri, dəbdəbəli zadəgan həyatının boşluğu, çürüklüyü, insanların əxlaqındakı naqislik- ikiüzlülükk, tamahkarlıq, yalançılıq, əxlaqsızlıq, pul hərisliyi, var-dövlət ehtirası, meşşanlıq və s. iyrənc sifətlər böyük ustalıqla ifşa olunur.

**165.** **84(5Aze)** **M 79** **Möcüz, Mirzə Əli.** Seçilmiş əsərləri / M. Ə. Möcüz; tərt., ön sözün müəl. Q. M. Məmmədli, bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2006.- 216 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

XIX əsrin sonu-XX əsrin əvvəllərində Cənubi Azərbaycanda gedən ictimai-siyasi proseslər Mirzə Əli Möcüz yaradıcılığına güclü təkan vermişdir. M. Ə. Sabirin təsiri altında şeirlər yazan Möcüz zülmdən və istibdaddan, şah üsuli-idarəsinin mənfur qaydalarından qorxub çəkinmədən öz ürək sözlərini şeirə çevirərək xalqını azad və hürr görmək arzusuyla yaşayıb yaratmışdır. Azadlıq mübarizəsini və milli hərəkatı tərənnüm etmək baxımından M.Ə. Möcüz poeziyası bu gün də aktualdır.

**166.** **84(5Aze)** **M 85** **Musabəyov, İbrahim bəy.** Neft və milyonlar səltənətində / İ. Musabəyov; tərt., ön sözün müəl. G. Məmmədova, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 152 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda görkəmli yazıçı İbrahim bəy Müsabəyovun "Neft və milyonlar səltənətində", "Gözəllərin vəfası", "Cəhalət fədailəri", "Xoşbəxtlər" povestləri, hekayələri və tərcümələri toplanmışdır. Bu əsərlərdə XX əsrin əvvəllərindəki Azərbaycan həyatının ictimai-siyasi mənzərələri canlandırılmış, təbii və səmimi bir dillə təsvir edilmişdir.

**167.** **84(5Aze)** **M 99** **Müznib, Əlabbas.** Seçilmiıо əsərləri / Ə. Müznib; tərt., ön sözün müəl. İ. M. Ağayev, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 256 s.- (Müasir Azərbaycan ədəbiyyatı)
Kitabda XX əsrin əvvəlləri və sovet hakimiyyəti illərində lirik və satirik şair, publisist, nasir, tərcüməçi, din tarixçisi və ədəbiyyatşünas alim kimi fəaliyyət göstərmiş və hər iki rejimin siyasi repressiyalarına məruz qalmış Əlabbas Müzhibin əsərləri 1907-1936-cı illərin dövri mətbuatından və ədəbi-tarixi

mənbələrindən toplanmış, ərəb və kiril əlifbasından müasir əlifbaya transliterasiya edilmişdir. Bu topluya Ə. Müzhibin ictimai-siyasi, satirik şeirləri, qəzəlləri, məqalələri, xatirələri, "Yusif və Züleyxa" romanı və "Müxtəsər ənbiya və İslam tarixi" əsəri daxil edilmişdir.

**168.** **84(5Aze) N 38** **Nemanzadə, Ömər Faiq.** Seçilmiş əsərləri / Ö. F. Nemanzadə; tərt., ön sözün müəl. Ş. Qurbanov, bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 352 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Kitabda görkəmli mollanəsrəddinçi, istedadlı publisist, jurnalist və ictimai xadim Ömər Faiq Nemanzadənin məqalə və felyetonları, xatirələri toplanmışdır. XX əsrin əvvəllərində Azərbaycan xalqının ictimai-siyasi mübarizəsini, mənəvi inkişafını, özünütanıma prosesini əks etdirən bu əsərlər, həmçinin dövrün ictimai mübarizəsinin bədii salnaməsini verən xatirələr xalqımızın yaxın keçmişi ilə tanış olmaq istəyən oxucular üçün maraqlı və əhəmiyyətlidir.

**169.** **84(5Тyц) N 42** **Nesin, Əziz.** Seçilmiş əsərləri / Ə. Nesin; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 240 s.- (Dünya ədəbiyyatı)

Satirik hekayələr və yumoristik novellalar ustası kimi dünya oxucularının dərin rəğbətini qazanmış böyük yazıçının təqdim olunan kitabına, müəllifin zəngin ədəbi irsindən seçmələr daxil edilmişdir. Bu nümunələrdə Nesin dilinə məxsus koloritin, türk hekayəçiliyi üslubunun saxlanılmasına xüsusi diqqət yetirilmişdir.

**170.** **84(5Aze) N 58** **Nərimanov, Nəriman Nəcəf oğlu.** Seçilmiş əsərləri / N. N. Nərimanov; tərt. T. Əhmədov; red. R. Ə. Mehdiyev.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 496 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Bu kitabda ədibin "Nadir şah", "Şamdan bəy", "Nadanlıq" pyesləri, "Bahadır və Sona" romanı, "Pir", "Bir kəndin sərgüzəştləri" və felyetonları toplanmışdır. Kitabın sonunda qeyd və şərhlər verilmişdir.

**171.** **84(5Aze) N 60** **Nəvvab, Mir Möhsün.** Seçilmiş əsərləri / M. M. Nəvvab; ərəb dilindən translit.: Ə. Məmmədbağıroğlu, A. Ramazanov; fars dilindən tərc. R. Ş. Kərimov; bur. məsul Ə. Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 216 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Olduqca rəngarəng və zəngin bədii yaradıcılığa malik olan Mir Möhsün Nəvvab klassik şeirin bütün janrlarında öz qələmini sınamışdır. Yəni qəzəl, rübai, qitə, mürəbbe, müxəmməs, müsəddəs, tərcibənd və tərkibəndlər onun "Divan" və "Məzlumnamə"sinin əsasını təşkil edir. "Elmi, dini, tibbi qeydlər" bəhsində M.M. Nəvvabın bu gün də öz aktuallığını itirməyən elmi, dini və tibbi görüşləri qələmə alınmışdır.

**172.** **84(5Aze) N 62** **Nəzmi, Əli.** Seçilmiş əsərləri / Ə. Nəzmi; tərt., ön sözün müəl. F. Hüseynov, ərəb dilindən translit., red. E. Qasımova, bur. məsul Ə. Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2006.- 544 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Əli Nəzmi XX əsr Azərbaycan ədəbiyyatında satirik şeirin məşhur nümayəndələrindən biridir. O öz güclü qələmi ilə cəhalətə, geriliyə, dini fanatizmə, istibdada və imperializmə qarşı kəskin mübarizə aparmışdır. Bu kitabda Əli Nəzminin zəngin ədəbi irsindən bir hissəsi, şeirləri, felyetonları və ərəb əlifbası ilə yazılmış "Keçmiş günlər" əsəri əlyazmasından transliterasiya edilərək ilk dəfə kitaba daxil edilmişdir.

173. 84(5Aze) N 73 **Nitqi, Həmid.** Seçilmiş əsərləri / H. Nitqi; tərt., ön sözün müəl. S. Nəbioğlu, red. U. Rəhimoğlu, bur. məsul U. Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2005.- 152 s.- (Müasir Azərbaycan ədəbiyyatı)

Güney Azərbaycanımızın görkəmli ədəbi simalarından olan Həmid Nitqinin bu kitabına, ustadın kəskin ahəngli, yığcam, müasir dünyamızın mənzərəsini gözümüz qarşısında canlandıran şeirləri və poemaları toplanmışdır. Bu əsərlərdə insanın daxili yaşantıları ilə xarici aləm arasındakı münasibətlər özünəməxsus təhkiyə ilə qələmə alınmışdır.

174. 84(5Aze) N 75 **Nizami Gəncəvi.** Xosrov və Şirin / Nizami Gəncəvi; tərc. R. Rza; ön sözün müəl. H. M. Araslı; elmi red. X. Yusifli.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 392 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Dahi Nizami Gəncəvinin "Xosrov və Şirin" əsəri "Xəmsə"nin ikinci kitabıdır. Şair bu əsərində məhəbbətin böyüklüyünü, insan ağlını, düşüncəsini tərənnüm edərək əsrlərlə unudulmayan bədii surətlər, ədəbi qəhrəmanlar yaratmışdır. Bu qəhrəmanlar sırasında dünya xəzinəsinin gözəl incisi olan Şirin öndə gedir. Böyük mütəfəkkir şair bu poemasında həm də Şərq ədəbiyyatında ilk dəfə olaraq əmək adamını- Fərhad surətini dərin məhəbbətlə qələmə almış, onu həm əmək, həm də eşq fədaisi kimi nümunə göstərmişdir.

175. 84(5Aze) N 75 **Nizami Gəncəvi.** İskəndərnamə. İqbalnamə / Nizami Gəncəvi; tərc. M. M. Rzaquluzadə; elmi red. X. Yusifli.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 256 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

"İqbalnamə" əsəri Nizami Gəncəvi yaradıcılığının ən yüksək zirvəsi və Şərq poeziyasının ən parlaq incisi hesab olunan "İskəndərnamə"nin ikinci hissəsidir. İskəndərin kamil insan, alim və ağıllı bir filosof kimi təsvir olunduğu bu hissədə Nizami ictimai, fəlsəfi düşüncələrə üstünlük vermiş, insan ağlının təntənəsindən bəhs etmiş, eləcə də insan və təbiət yaradılmış və dünya, həyat və ölüm, elm və din kimi məsələlərlə bağlı ən qabaqcıl görüşlərini əks etdirmişdir.

